Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

9 APREL 2019-cu il

№ 62 (3960)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# VYANADA YÜKSƏK QARABAĞ DANIŞIQLARINDAN SONRA ABŞ VƏ FRANSA RƏHBƏRLƏRİ PUTİN KİMİ DAVRANMADI...

səh. 8

Paşinyan siyasi müxalifətə qarşı rəsmi təqib əmri verdi - demokratiyaya keçid dövrü yarımçıq bitdi... səh. 7

Radikallar İlqar Məmmədovu siyasi satqınlıqda suçlayır, bəs konstruktivlər... səh. 6

Türkiyədə seçki saxtakarlığının daha çox məsuliyyətini kim daşıyır - hakim partiya, ya ana müxalifət... səh. 8

Bankların faiz siyasəti - iqtisadi inkişafı ləngidən ciddi faktorlardan biri... səh. 11

"Dilini qarnına qoymasan Elinanın ölümü sənin boynuna atılacaq" səh. 13

Xəzəri çirkləndirən istirahət mərkəzləri bunlardır - Nazirliyin açıqlamasına mərkəzlərdən qəribə cavablar... səh. 14

Bakıda mənzillərin qiymətində yeni proses - "novostroyka"lar ucuzlaşır, köhnə mənzillər bahalaşır... səh. 10

Məşhur kinolarımızdakı dialoq-monoloq mətnlərini təhriflə bərbad günə qoyan reklamçılar... səh. 15

## Avroittifaqın Azərbaycana və Ermənistana yanaşmasında fərq dərinləşir - səbəb Qarabağ məsələsidir...

səh. 9





Trampın «yaxınlarda Qarabağ məsələsində ciddi irəliləyiş olacaq» bəyanatından bir il ötdü... səh. 5

İmtahan Mərkəzinin sınaq imtahanları özəl kursların qiymətindən azı 4 dəfə bahadır səh. 12



Sabiq komitə sədrinin əcnəbilərlə 1,6 milyon dollarlıq otel mübahisəsi və Azərbaycan dövlətinin imici məsələsi... səh. 10

Vüqar Səfərli: "Məqsədimiz qəzetləri sıxışdırmaq yox, inkişaf etdirməkdir" səh. 3



"Prezident bir ildə verilmiş vədləri doğrultmaq nümunəsi yaratdı" səh. 4



Feyklə mübarizə adı altında Paşinyan müxalif medianı əzməyə başlayıb, dünya susur... səh. 5



Milli Teleradio Şurası tarixində ilk dəfə şəxslərə qarşı ən sərt qərara əl atdı səh. 12



Problemli kreditlərə görə kompensasiyalar saytının özündə də problemlər var - insanlara fərq qoyulur? səh. 11



## Azərbaycan "Cənub Qaz Dəhlizi" üçün AİB kreditindən imtina etdi

**Optimallaşdırma və layihə xərclərinin azaldılması nəticəsində Azərbaycanın "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin Asiya İnkişaf Bankının (AİB) birbaşa kreditinə tələbatı olmayıb.**



Bunu "Trend"ə SOCAR-ın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi İbrahim Əhmədov deyib.

O qeyd edib: "Məlum olduğu kimi, "Cənub Qaz Dəhlizi" QSC AİB ilə iki saziş imzalayıb. Onlardan biri 524,5 milyon dollar məbləğində vəsaitin cəlb edilməsinə zəmanət verir və QSC tərəfindən tam istifadə olunub. Digər saziş - 500 milyon dollarlıq birbaşa kreditə isə optimallaşdırma və layihə xərclərinin azaldılması nəticəsində "Cənub Qaz Dəhlizi" QSC-nin tələbatı olmayıb".

Avropa Yenidənqurma və İnkişaf Bankından cəlb olunan 500 milyon dollar məbləğində kreditə gəlincə, İ.Əhmədov bildirib ki, bu vəsait də tam mənimsənilib:

"QSC ilin əvvəlindən "Cənub Qaz Dəhlizi" layihəsində (maliyyələşdirmə xərcləri daxil) öz iştirak payının maliyyələşdirilməsinə təqribən 320 milyon dollar yönəldib".

Qeyd edək ki, 2018-ci il mayın 29-da Bakıda "Cənub Qaz Dəhlizi"nin birinci mərhələsinin rəsmi açılış mərasimi keçirilib. İyunun 12-də isə Türkiyənin Əskişəhər şəhərində TANAP qaz kəmərinin istifadəyə verilməsi münasibətilə təntənəli mərasim baş tutub.

"Cənub Qaz Dəhlizi"nə "Şahdəniz-2" qaz yatağı, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP layihələri daxildir. 1,2 trilyon təbii qaz ehtiyatına malik "Şahdəniz" Azərbaycanın ən iri qaz-kondensat yatağı və "Cənub Qaz Dəhlizi"nin hasilat mənbəyidir.

## Təhsil Nazirliyi intihar edən şagirdin ailəsi haqqında təhqiramiz fikirlər səsləndirən məktəb direktoru ilə bağlı açıqlama yaydı

**Təhsil Nazirliyi 162 nömrəli tam orta məktəbin direktoru Sevinc Abbasovanın intihar edən 8-ci sinif şagirdi Elina Hacıyevanın ailəsi haqqında təhqiramiz fikirlərinə münasibət bildirib.**



Baki-xeber.com xəbər verir ki, bu barədə nazirliyin mətbuat katibi Cəsarət Valehov öz "Facebook" səhifəsində yazıb.

O qeyd edib ki, məlum cinayət hadisəsi ilə bağlı hazırda istintaq tədbirləri aparılır. "Şübhəsiz ki, istintaqın gedişində bu məsələ ilə bağlı bütün təfərrüatlar araşdırılacaq və hüquqi qiymətini alacaq. Hətta bu səs yazısının özü də. Ona görə xahiş edirik istintaq prosesinin nəticələrini gözləyək" - deyə Valehov bildirib.

Xatırladaq ki, 162 nömrəli tam orta məktəbin direktoru Sevinc Abbasova ona müraciət edənlərə Elinanın pozğun və uğursuz ailənin övladı olduğunu, anasının ikinci dəfə ailə qurduğu, ikinci nikahdan kiçik uşaqları olduğuna görə Elina ilə maraqlanmadığını yazmağı tövsiyə edib.

## Kartof, soğan və kələmin ciddi bahalaşması rəsmi təsdiqləndi - çarə də tapıldı...

**İqtisadiyyat və Kənd Təsərrüfatı nazirlikləri son günlər bəzi tərəvəz məhsullarının qiymətində baş verən artımla bağlı birgə məlumat yayıb.**

Baki-xeber.com-a daxil olan birgə məlumatda deyilir: Məlum olduğu kimi, son vaxtlarda daxili bazarda kartof, soğan və kələmin qiymətində ciddi artım baş verib.

Bununla əlaqədar, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 aprel 2019-cu il tarixli qərarı ilə beynəlxalq təcrübəyə uyğun olaraq, həmin məhsulların istehsal mövsümü də nəzərə alınmaqla, kartofun ixracına bu ilin 30 aprelinədək, soğan və kələmin ixracına isə 31 may tarixinədək ixrac rüsumunun tətbiqinə başlanmış, habelə soğanın idxalına tətbiq olunan spesifik rüsum həmin müddətədək ləğv edilib.

Atılmış bu addım daxili bazarda qiymət sabitliyinin təmin olunmasına, ölkə əhalisinin bu məhsullara olan tələbatının daha dolğun ödənilməsinə xidmət edir.

Sahibkarların məhsullarının satışında yarana biləcək çətinliklərin aradan qaldırılması istiqamətində zəruri tədbirlər görüləcəkdir.

# Şəmkirdə yol tikintisinə 14 milyon manat ayrıldı

**Prezident İlham Əliyev Şəmkir rayonunun Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**



Sərəncamda qeyd edilir ki, səksən beş min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Şəmkir-Zəyəm-Düyərli-Şiştəpə-Bayramlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 14 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

# Vaqif Dərgahlı Tonoyanın "ağzından vurdu"

## *"Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır"*

**Dünyada elə bir dövlət yoxdur ki, onun ordusu sülhə hazırlaşsın. Orduların vəzifəsi sülhə yox, məhz müharibəyə hazır olmaqdır.**



Bunu "Trend"in sorğusuna cavab olaraq Ermənistanın müdafiə naziri David Tonoyanın Azərbaycanın hərbi-siyasi rəhbərliyinin ordunu sülhə hazırlamaqla bağlı dediyi fikri şərh edərkən Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı bildirib.

V.Dərgahlı deyib ki, ordunun funksiyası daim müharibəyə hazır olmaqla ölkənin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün qorunması, habelə təhlükəsizliyinin və müdafiəsinin təmin edilməsidir: "Ali Baş Komandanımızın bəyan etdiyi kimi, Ermənistan sülh istəyirsə, erməni əsgəri qeyd-şərtsiz Azərbaycan torpaqlarından çıxmalıdır.

Ermənistanın hərbi-siyasi rəhbərliyi birdəfəlik anlamalıdır ki, yalnız torpaqlarımızı işğaldan azad etdikdən sonra Ordumuz sülh haqqında düşünə bilər. İndiki şəraitdə isə Azərbaycan Ordusu sülhə yox, müharibəyə hazırdır".

# Azərbaycan XİN rəhbərinin bir açıqlaması erməni müdafiə nazirini sözünü dəyişməyə vadar etdi

**"Azərbaycan rəhbərliyi ordusunu müharibəyə deyil, sülhə hazırlamalıdır".**



Bu sözləri Ermənistanın Müdafiə naziri David Tonoyan bu günlərdə "Erablur" hərbi panteonunda hərbçilərlə görüşündə deyib. Bildirib ki, onlar müharibə deyil, sülhün təşviq olunmasının tərəfdarıdırlar və Azərbaycan rəhbərliyindən də bunu gözləyirlər. Halbuki, daha öncə Nyu Yorkda erməni lobbisinin üzvləri ilə görüşündə o, "sülhə qarşılıq ərazilərin qaytarılması" formulunun heç vaxt həyata keçməyəcəyini, hətta əksinə, "yeni müharibənin yeni ərazilər demək olduğunu" bildirmiş və bununla da ölkəsinin təcavüzkar mahiyyətini bir daha ortaya qoymuşdu. Bu gurultulu bəyanatının ardından David Tonoyanın birdən-birə sülhün kəskin müdafiəçisi kimi çıxış etməsi maraq doğurur.

Heç şübhə yoxdur ki, erməni nazirin öz mövqeyində belə kəskin dönüş etməsində Azərbaycan XİN rəhbərinin bu günlərdə dediyi "mənimlə anlaşa bilməyənlər Müdafiə naziri ilə anlaşmalı olacaq" ritorikası ciddi rol oynayıb.

Görək, daha hansı sözləri dəyişməli olacaqlar...

**SAMİRƏ**

## Paşinyanın xanımından sensasion açıqlama: "Əsgərlərimiz mənasız yerə Qarabağda ölüblər"

**"Ermənistanın minlərlə əsgəri heç nəyə görə Dağlıq Qarabağda həyatını itirib".**

"Sputnik Azərbaycan" "Yekramas" nəşrinə istinadən xəbər verir ki, bu sensasion açıqlamanı Ermənistanın baş naziri Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyan "Amerikanın səsi" radiosunun erməni redaksiyasına müsahibəsi zamanı verib. Dağlıq Qarabağ münaqişəsi barədə danışarkən Akopyan qeyd edib ki, Ermənistanın minlərlə əsgəri heç nəyə görə Dağlıq Qarabağda həlak olub.

Xatırladaq ki, Ermənistanın baş nazirinin həyat yoldaşı hazırda ABŞ-dadır. ABŞ-ın Boston ştatındakı erməni icması tərəfindən Akopyanın rəhbərlik etdiyi "Təbəssüm şəhəri" Xeyriyyə Fonduna 150 min dollar ianə təqdim edilib.

# Vüqar Səfərli:

# "Məqsədimiz qəzetləri sıxışdırmaq yox, inkişaf etdirməkdir"

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərlinin "Trend"ə müsahibəsi.**



**- Vüqar müəllim, bir müddətdir ki, ictimai-siyasi qəzetlərə maliyyə yardımının ayrılması ilə bağlı müsabiqənin şərtlərinin dəyişdirilməsi müzakirə olunur. Bununla bağlı yekun olaraq hansı qərar qəbul olundu?**

- Bildiyiniz kimi, biz bu il yanvarın 31-də qəzetlərin II rüb ərzində maliyyələşdirilməsi üçün elan vermişdik. Həmin elanın bəzi şərtləri narazılıqlar yaratmışdı. Elanın şərtlərində qəzetin gündəlik tirajının 5000 və yayımının 2000 nüsxə olması tələb olunurdu. Bu, əvvəlki illərə nisbətən bir qədər fərqli idi. Yəni əvvəlki illərdə qəzetin tirajı ilə bağlı tələb 2500, yayımı ilə bağlı tələb isə 1000 nüsxə qoyulmuşdu. Birdən-birə bu tələb iki dəfə artırıldı və bu da qəzetlər üçün bir qədər çətinlik yaratdı. O vaxt mətbuatda bu barədə bir az ajiotaj yarandı. Bir çoxları iddia edirdi ki, guya qəsdən belə şərtlər qoyulur ki, qəzetlər bağlansın. Ancaq bizim fikrimiz qəzetləri inkişaf etdirməkdir. 10 il ərzində bu qəzetlərə vəsait ayrılıb, bu müddət ərzində şərtlər üç dəfə dəyişib və bu da növbəti dəyişiklik idi. Qəzetlərin hesabatlarını qəbul edərkən gördük ki, qəzetlər həmin şərtləri yerinə yetirə bilmirlər. Bundan sonra Fondun Müşahidə Şurası yığışdı və müzakirə olundu ki, biz o şərtlərə əlavə güzəştlər edək. Yəni həmin şərtləri - 5000 tiraj, 2000 yayım tələbini yerinə yetirə bilməyən qəzetlər üçün II kateqoriya nəzərdə tutduq ki, həftəlik buraxılışa keçsinlər və həftəlik nəşrlərin 5000 tirajının çap və kağız məsrəflərini Fond ödəsin.

Bununla belə, müsabiqə başa çatandan sonra araşdırıb gördük ki, bu şərtləri də qəzetlər yerinə yetirə bilmirlər və qəzetlərin bir çoxu kənarda qalır. Ona görə də bunları nəzərə alaraq martın 30-da qəzet baş redaktorları ilə böyük bir toplantı keçirildi və bu məsələlər orada müzakirə edildi. Görüşdə vəziyyətdən çıxış yolları axtarıldı və bir çox təkliflər verildi. Fondun da öz təklifləri var idi. Biz belə təklif irəli sürmüşdük ki, 3 kateqoriya müəyyənləşsin. I kateqoriyada gündəlik 3000 nüsxədən çox tirajı olan və 2000 nüsxədən yuxarı yayımı olan qəzetlər maliyyələşdirilsin və bu qəzetlər üçün hər ay 20 000 manat vəsait ayrılsın. Bu kateqoriyaya düşə bilməyən qəzetlər isə II kateqoriyaya aid edilsin və həmin qəzetlər öz istəklərindən asılı olaraq həm gündəlik, həm də günaşırı çap olunsun. Bu qəzetlərə isə hər ay 10 000 manat vəsaitin ayrılması nəzərdə tutulsun. III kateqoriyaya daxil olan, yəni həftəlik qəzetlər üçün isə 5000 manat yardım ayrılması nəzərdə tutulurdu.

Onu da qeyd edim ki, günaşırı və həftəlik qəzetlər üçün tiraj 2500 nüsxə, yəni əvvəl olduğu kimi saxlanıldı, yayım isə 1500-ə qaldırıldı. Bu məsələ ümumi iclasdan sonra Müşahidə Şurasında bir daha müzakirə olundu və tədqirəlayiq hesab edildi.

Burada Fondun məqsədi qəzetləri sıxışdırmaq yox, inkişaf etdirməkdir. Fondun Müşahidə Şurasının son qərarı onu göstərdi ki, bəli, bu gün qəzetlərin inkişafı üçün dövlət nə lazımdırsa edir. Müsabiqə şərtlərinin yenidən dəyişdirilməsi, günün tələbinə uyğunlaşdırılması və yardımların artırılması göstərdi ki, dövlət həmişə medianın yanındadır.

**- Vüqar müəllim, belə aydın olur ki, müsabiqənin şərtləri dəyişdirilsə də, maliyyə yardımının məbləği artırılır. Ancaq bu məsələ cəmiyyətdə yanlış anlaşılmışdı...**

- Bəli, elədir. Əvvəlki illərdə "kateqoriya" demirdik. Onda da gündəlik, günaşırı və həftəlik qəzetlər var idi. Onu da deyim ki, həftəlik qəzetlərə əvvəl 1500 manat vəsait ayrılırdısa, indi 5000 manat, yəni üç dəfədən çox vəsait ayrılır. Günaşırı qəzetlərə ayda 6000 manata qədər vəsait ayrılırdısa, indi 10 000 manat vəsait ayrılır. Tirajları və yayımları çox olan gündəlik qəzetlər üçün isə ayda 10 000 min manat vəsait ayrılırdı ki, bu məbləğ də iki dəfə artırıldı, yəni 20 000 manata qaldırıldı.

**- Necə düşünürsünüz, qəzetlər bu tələblərə əməl edə biləcəklərmi? Əgər edə bilməsələr necə olacaq?**

- Bir məsələni deyim ki, ayda 10 000 manat vəsait ayrılan qəzetlərin hazırda 1500 nüsxə yayımı yoxdur. Hamısında 2500 tiraj var, ancaq 1500 nüsxə yayım yoxdur. Biz onlara üç ay vaxt verdik ki, üç ay müddətində yayımı 1500 nüsxəyə çatdırsınlar. Üç ay müddətində həmin şərtləri yerinə yetirə bilməyən qəzetlərə maliyyə yardımı dayandırılacaq. Əgər şərtlərə əməl edə bilməsələr, yəqin ki, onlar da həftəlik qəzetlər sırasına keçiriləcək. I kateqoriyaya uyğun olaraq öz tiraj və yayımlarını artıracaq qəzetlər isə həmin kateqoriya üzrə maliyyələşdiriləcək.

**- Qəzet rəhbərləri qəzet köşklərinin az olmasından şikayət edirlər və yayımın artırılması üçün əlavə köşklərin qoyulmasını təklif edirlər. Bu barədə nə deyə bilərsiniz?**

- Əlavə köşklərin qoyulmasına ehtiyac yoxdur. Bu gün şəhərimizin mərkəzi yerlərində, insanların ən sıx olduğu ərazilərdə, metro stansiyalarının çıxışlarında müasir köşklər qoyulub və qəzetlər həmin köşklərdə satılır. Sadəcə, köşklərdə yayıma diqqəti artırmaq lazımdır. Bunun üçün Mətbuat Şurasında komissiya yaradılıb. Yəqin ki, bu məsələlər də müzakirə olunacaq və həllini tapacaq.

**- Şübhəsiz ki, qəzetlərin yayımının azalmasına onlayn medianın da öz təsiri var. Bununla bağlı da fikirlərinizi bilmək istərdik.**

- Əlbəttə, onlayn media yaranandan sonra qəzetlərin tirajı, satışı sürətlə aşağı düşdü. Çünki qəzet nə qədər operativ olmağa çalışsa da, məlumatı bir gündən tez verə bilmir. Bu günün məlumatları oxucuya növbəti gün çatdırılır. Ancaq onlayn media məlumatı oxuculara dərhal çatdırır. Təkcə Azərbaycanda deyil, bütün dünyada bu təsir var. Lakin klassik mətbuat da, yeni çap mediası da öz işini davam etdirməlidir. Çünki çap mediasının öz yeri var. Çap mediası bir salnamədir, onun böyük arxivi qalır və lazım olanda o arxivə müraciət etmək olur. Ancaq onlayn media belə deyil, elektron media silinərsə, arxivi də silinir.

Hesab edirəm ki, qəzetlər təkcə xəbər arxasınca qaçmamalı, təhlillər, maraqlı yazılar verməli, bununla oxucuları cəlb etməlidirlər. Hər bir qəzetin öz oxucusu olmalıdır. Əlbəttə, əvvəlki qədər tiraj, oxucu olmayacaq, ancaq hər halda olacaq.

**- Bir məsələ də var ki, gənc nəsil qəzetlərə o qədər də maraq göstərmir. Qəzetləri əsasən internetdən istifadə edə bilməyən yaşlı nəsil oxuyur və nəsil dəyişdikcə qəzetlərə maraq da azalır.**

- Bəli, doğrudur, bu amil də var. Hətta yaşlı nəslin bir qismi də var ki, latın qrafikalı Azərbaycan əlifbası ilə oxuya, yaza bilmir və öyrənməkdə də maraqlı deyil. Soruşanda isə deyirlər ki, yaşlı adamdırlar, bundan sonra əlifbanı öyrənib nə edəcəklər. Təbii ki, belə düşünən yaşlı nəslin nümayəndələri də qəzet almırlar.

**- Jurnalistlər üçün növbəti binanın inşasına da toxunmaq istərdik. Hazırda vəziyyət nə yerdədir?**

- Jurnalistlər üçün tikilən binanın artıq sonuncu mərtəbəsində tamamlanma işləri aparılır. Mənzillərin 2020-ci ilin yayında jurnalistlərin istifadəsinə verilməsi planlaşdırılır.

**- Bəs mənzillərin verilməsi ilə bağlı meyarlar dəyişdirilə bilər?**

- Meyarlar haqqında indidən heç nə demək olmaz. Həmin meyarlar, yəqin ki, mənzillərin verilməsinə 4-5 ay qalmış müzakirə olunacaq və açıqlanacaq. Lakin hansısa yeni meyarların əlavə olunacağını düşünmürəm.



# Aydın Quliyev: "Prezident bir ildə verilmiş vədləri doğrultmaq nümunəsi yaratdı"

**"Prezident seçkilərindən ötən son bir il ərzində Azərbaycanda görülən işlər seçki kampaniyası dövründə verilmiş vədlərin ardıcıl icrası baxımından diqqətəlayiq olmaqla yanaşı, həm də məzmununa görə Prezident İlham Əliyevin 15 ildə gördüyü işlərdən müəyyən qədər fərqlənir".**

Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi şərhçi Aydın Quliyev deyib.

Siyasi şərhçinin sözlərinə görə, 1 il bundan öncə seçki kampaniyasında verilən vədlərin qrafikə uyğun icrası bir daha göstərir ki, Azərbaycan Prezidenti xalqla yalnız yerinə yetirilməsi mümkün işlər barədə dialoq aparır, qeyri-real vədlər vermir, verilmiş vədlərə görə cəmiyyət qarşısındakı məsuliyyətinə prinsipial yanaşır: "Son bir ildə həyata keçirilmiş işlərin ümumən son 15 ildəki fəaliyyətlərdən əsas fərqi əhalinin sosial müdafiəsinə və təminatına yönəlik paketlərin icraatının üstünlük təşkil etməsidir. Sosial sahə hər zaman dövlətin diqqət mərkəzində olub. Lakin son bir ildə bu işlər öz ağırlığı ilə diqqət cəlb edir. Prezidentin bir ildəki fəaliyyəti iqtisadi, siyasi və xarici fəaliyyət sahəsində seçilmiş kursun davamı olmaqla seçki platformasına da tam uyğun olması ilə xarakterikdir".

A.Quliyev söyləyib ki, Azərbaycan Prezidenti yeni iqtisadi modelə keçid etməyi, islahatları keyfiyyətcə yeni mərhələyə çıxarmaqla, sosial sahədə heç bir layihəni ixtisara salmadan geniş sosial müdafiə paketləri icra etməyi, hər bir vətəndaşın mənafelərinə yönəlik siyasəti daha da dərinləşdirməyi, Dağlıq Qarabağ probleminin həlli sahəsində ölkənin mövqelərini daha da möhkəmləndirməyi öz seçki platformasının əsas prinsipləri kimi cəmiyyətə təqdim etmişdi: "Bu istiqamətlərin hər biri üzrə təhlil aparanda ortada böyük nəticə olduğunu görürük. Bir ildə ən böyük nəticəni Prezidentin xalqla münasibətləri müstəvisində görürük. Bu münasibətlər daha canlı, birbaşa, səmərəli və təsirli olmağa başlayıb. İslahatların, sosial müdafiənin və iqtisadi artım tempinin təmin edilməsi bu nəticənin əldə olunmasında həlledici rol oynayır. İqtisadi inkişaf, xüsusilə qeyri-neft sektorunun gücləndirilməsinə yönəlik fəaliyyətlər çox əhəmiyyətlidir".

**Baş redaktor qeyd edib ki, son 1 ildə görülən işlər nəticəsində Ermənistan tam təcrid vəziyyətinə çatdırılıb, dünya Azərbaycanı dəstəkləyir, ordu quruculuğu böyük sürətlə gedir: "Bütün bunlar Prezidentin seçki platformasının reallaşdığını göstərən faktlardır. Prezident bir ildə verilmiş vədləri doğrultmaq nümunəsi yaratdı".**



# Azərbaycanla NATO-nun arasını vurmaq istəyən "alman təxribatına" XİN rəsmi cavab verdi

*"Azərbaycan dəhliz mənasında NATO-ya hər hansı ərazisini verməyib"*

**Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində yayılan "Azərbaycan NATO üzvü ölkələr üçün öz ərazisindən keçən dəhlizi bağlayır" ifadəsi həqiqətə uyğun deyil.**

Baki-xeber.com xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva deyib.

L.Abdullayeva bildirib ki, Azərbaycan dəhliz mənasında heç kimə, o cümlədən NATO-ya hər hansı ərazisini vermir: "Burada söhbət NATO-nun Əfqanıstanda həyata keçirdiyi və Azərbaycanın da iştirakçısı olduğu "Qətiyyətli Dəstək" missiyasının üzvlərinə ölkə ərazisindən, o cümlədən quru, hava və su məkanından sözügedən missiya çərçivəsində müvafiq yük daşımalarının həyata keçirilməsi üçün müvafiq imkanın təmin edilməsindən gedir. Belə bir təcrübə 2001-ci ildən mövcuddur. Bu imkanların təmin olunması üçün NATO üzv ölkələrinin müvafiq uçuş icazələrinin əldə edilməsi müraciətləri ikitərəfli əsaslarda nəzərdən keçirilir. Sözügedən müraciətlərə Azərbaycan tərəfinin müvafiq qayda və prosedurlarına uyğun olaraq, eləcə də tərəfdaşlığın təməlini təşkil edən dövlətlərin bir-birinin suverenliyi və ərazi bütövlüyünə hörmət və əməkdaşlıq prinsipləri əsasında baxılır.

XİN rəsmisi deyib ki, bu günədək Azərbaycan məhz bu prizmadan yanaşaraq NATO-nun Əfqanıstanda həyata keçirilmiş missiyasına, eləcə də ümumiyyətlə bölgədəki sülh və təhlükəsizliyə öz töhfəsini verib: "ABŞ və digər NATO ölkələri Əfqanıstana uçuşlarını məhz Azərbaycan ərazisindən istifadə etməklə həyata keçirirlər. Digər tərəfdən, bu gün Azərbaycan transregional əlaqələndirmə ölkəsi kimi tanınır. Azərbaycan ərazisinin quru və su məkanı üzərindən tranzit imkanları yaradılıb. 2017-ci ildən etibarən fəaliyyətə başlayan Bakı-Tbilisi-Qars dəmir yolu xətti və ötən ildən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tam fəaliyyətə başlaması bu xüsusda yeni imkanlar açıb. Bir neçə NATO üzv ölkələri Əfqanıstana yükdaşımaları məhz bu yollardan istifadə etməklə təmin edirlər. Bütün bu qeyd olunanların müsbət dəyərləndirilməsinin davamı olaraq cari ilin 4 aprel tarixində Vaşinqtonda NATO-nun baş katibi mətbuat konfransında qeyd edib ki, Azərbaycan Alyansın yaxın tərəfdaşıdır və ölkəmiz beynəlxalq sülh və təhlükəsizliyin bərqərar olunmasında NATO ilə sıx əməkdaşlıq edir. Baş katib, həmçinin, Azərbaycanın NATO-nun "Qətiyyətli Dəstək" missiyasına əhəmiyyətli hərbi qüvvə və multimodal tranzit töhfəsi verdiyini qeyd edib, bu xüsusda Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Əfqanıstana daşımalar zamanı istifadə olunduğu və bu dəmir yolunun Alyansın "Qətiyyətli Dəstək" missiyasına mühüm töhfə verdiyini bildirib. Vurğulamaq istərdik ki, baş katib NATO ölkələrinin kollektiv mövqeyini təqdim edir və baş katibin sözügedən bəyanatı da məhz bu əsaslarda verilib".

L.Abdullayevanın sözlərinə görə, bununla yanaşı, son günlər Almaniya mətbuatına sızılmış məlumatlar və ittihamlar anlaşılmazlıq yaratmaqla yanaşı, kiminsə qərəzliliyindən xəbər verir: "Əsassız ittihamları özündə əks etdirən bu məlumatlar konkret faktlara əsaslanmır. Bir daha bildiririk ki, Azərbaycan müvafiq tərəfdaşlıq prinsipləri əsasında və beynəlxalq hüququn normalarına uyğun olaraq NATO üzv ölkələri ilə əməkdaşlıq edib, hazırda edir və gələcəkdə də bu əməkdaşlığı davam etdirməyə hazırdır.

**Almaniya KİV-inə sızılmış məlumata istinadən müşahidə etdiyimiz uydurma kampaniya yanlışdır və Azərbaycan haqlı olaraq gözləyir ki, Almaniya hökuməti müvafiq şəkildə özü bu məsələni cavablandıracaq. Azərbaycan NATO üzv ölkələrinin müraciətlərinə bundan sonra da müvafiq şəkildə baxmağa davam edəcək".**

# Beynəlxalq Prokurorlar Assosiasiyasının Oslo toplantısında Azərbaycanın son hüquqi islahatları müzakirə olundu

**Azərbaycanın prokurorluq orqanları xarici ölkələrin prokurorluq orqanları və nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan və 170-dən çox dövlətin üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (BPA) ilə səmərəli qarşılıqlı əməkdaşlığını davam etdirir.**

Bu ilin 4-5 aprel tarixlərində Norveç Krallığının Oslo şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) İcraiyyə Komitəsinin 47-ci iclası keçirilib.Tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Assosiasiyanın İcraiyyə Komitəsinin üzvü və təşkilatın vitse-prezidenti Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Tədbirdə çıxış edən Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev ölkəmizdə həyata keçirilən cinayət qanunvericiliyinin dekriminallaşdırılması və liberallaşdırılması, məhkəmə-hüquq sistemində şəffaflığın təmin edilməsinə yönəlmiş genişmiqyaslı islahatlar, həmçinin qətiyyətli korrupsiyaya qarşı mübarizə tədbirləri barədə iştirakçılara ətraflı məlumat verib.

Qeyd olunmalıdır ki, iclasda çıxış edən qurumun İcraiyyə Komitəsi və Katibliyinin rəhbər şəxsləri Azərbaycanın Assosiasiyanın işinə verdiyi önəmli töhfələri və onun fəaliyyətində göstərdiyi təşəbbüskarlıq və mühüm dəstəyi xüsusi vurğulamaqla, ölkəmizlə əməkdaşlıqdan məmnunluqlarını ifadə ediblər.

İclasda İcraiyyə Komitəsinin növbəti 48-ci iclasının və Assosiasiyanın 24-cü İllik Konfransının 2019-cu ilin sentyabr ayında Argentinanın Buenos-Ayres şəhərində keçirilməsi qərara alınıb.

***Baki-xeber.com***

**Ötən il ərzində ABŞ Prezidenti Donald Tramp ölkə başçısı İlham Əliyevə 4 məktub göndərdi. Müxtəlif əlamətdar hadisələrlə bağlı göndərilən təbrik məktublarında Azərbaycanla əməkdaşlığa böyük önəm verdikləri qeyd edilirdi. Xüsusilə də məktublarda Dağlıq Qarabağ probleminin həllinə dair ABŞ adından ümidverici vəd də verilirdi.**

*"ABŞ-Ermənistan münasibətlərinin perspektivi yaxşı görünmür"*

# Trampın "yaxınlarda Qarabağ məsələsində ciddi irəliləyiş olacaq" bəyanatından bir il ötdü...

***Mübariz Əhmədoğlu:** "Elə zənn edirdi ki, Paşinyanı onlar hakimiyyətə gətirib və yeni fiqur kimi gənc "demokrat" ABŞ-ı eşidəcək"*




ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə göndərdiyi məktubların birindən sitat: "...Biz Sizinlə birlikdə terrorçuluğun məğlub edilməsində, yeni iş yerlərinin yaradılmasında və Avropanın enerji təhlükəsizliyinin yaxşılaşdırılmasında tərəqqi əldə edə bilərik. Korrupsiyaya qarşı mübarizədə və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində irəliləyiş bu səylərə töhfə verəcək. Sizə və Azərbaycan xalqına ən xoş arzularımı bildirirəm".

Ötən il müstəqillik günü ilə bağlı ABŞ Prezidenti Donald Trampın Ermənistan baş naziri Nikol Paşinyana ünvanladığı məktubun mətnində də Dağlıq Qarabağ probleminin həllinə ümidverici yanaşma ortaya qoyulurdu. Ermənistanın müstəqillik günü ilə bağlı ünvanlanan təbrik məktubunda diqqətçəkən məqamlardan biri də budur ki, Tramp yaxın aylarda Dağlıq Qarabağ konfliktinin həlli istiqamətində yaxşı imkanların açılacağını vurğulayıb. Bu xüsusda ABŞ Prezidenti bildirib ki, bu hal ABŞ-Ermənistan münasibətlərinin inkişafında da yeni səhifə aça bilər. Çünki Minsk Qrupunun həmsədri kimi ABŞ uzun illərdir bu konfliktin həlli istiqamətində səylər göstərir.

Göründüyü kimi, Tramp konkret vaxt göstərərək, yaxın aylarda Dağlıq Qarabağ probleminin həlli istiqamətində imkanların olacağına işarə edirdi. Ancaq həmin məktubların göndərilməsinin üstündən az qala bir il vaxt keçir, Dağlıq Qarabağ probleminin həlli istiqamətində isə heç bir irəliləyiş yoxdur. Trampın məktubundakı məqamlarla əldə olunan nəticə arasındakı uyğunsuzluğu nə ilə izah edə bilərik?

**Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Trampı məyus edə biləcək səbəblər bəllidir:** "Bəli, Paşinyana göndərilən məktubda Tramp yaxın aylarda Dağlıq Qarabağ konfliktinin həllində irəliləyişin olacağına işarə etmişdi. Bu əminlik onda təsadüfən yaranmamışdı. Elə zənn edirdi ki, Paşinyanı onlar hakimiyyətə gətirib və yeni fiqur kimi gənc "demokrat" ABŞ-ı eşidəcək. Sonra biz gördük ki, Paşinyan hətta Serj Sarkisyanın da dövründəkindən qat-qat rusiyapərst siyasət yürütdü. Görünən budur ki, Paşinyan Putinin təsir zonasından çıxa bilmir. ABŞ-ın sözü Paşinyanın yanında istədikləri kimi həyata keçmədiyinə görə iki ölkə arasında ciddi problemlər meydana çıxıb. Son il ərzində ABŞ-la Ermənistan arasında bir dənə də olsun sənəd imzalanmayıb. ABŞ-dan Ermənistanla bağlı səslənən bəyanatları erməni təşkilatları verir. Ermənistan rəsmiləri ABŞ-a səfərə gedəndə yalnız erməni diasporu tərəfindən qəbul edilir. Bu yaxınlarda onların xarici işlər naziri nə qədər cəhd etsə də, ABŞ dövlət katibi ilə görüşə bilmədi. Paşinyanın həyat yoldaşı Anna Akopyan Konqresin kitabxana müdiri səviyyəsində qəbul olundu. Bütün bunlar onu deməyə əsas verir ki, Paşinyan ABŞ-ı aldadıb. Buna görə də onun ABŞ-a səfərini təşkil edə bilmirlər".

Ekspertin sözlərinə görə, ABŞ heç də əl-qolunu sallayıb oturmur: "Kifayət qədər addımlar atır. Ola bilər ki, biz onların nəticəsi ilə bir müddət sonra tanış ola bildik. ABŞ Rusiya ilə ayrılmaz müttəfiq olduğunu təsdiqləyən Ermənistana qarşı ayrıca sanksiya da tətbiq edə bilər. Çünki Vaşinqton son vaxtlar Rusiyanın ayrılmaz müttəfiqlərinə qarşı belə sanksiyalar tətbiq edir. Ermənistan Rusiyanın maraqlarına uyğun olaraq, Suriyaya humanitar yardım göndərməklə ABŞ-a qarşı olduğunu əməldə də sübut edib. Bütün bunları analiz etdikdə bu nəticəyə gəlirik ki, ABŞ-Ermənistan münasibətlərinin perspektivi yaxşı görünmür. Məhz bu səbəblərə görə Trampın ehtimalları özünü doğrultmayıb".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, sosial şəbəkələrdə feyk profillərin aşkarlanması və tədbir görülməsi ilə bağlı Ermənistan baş naziri Nikol Paşinyan MTX direktoru Artur Vanetsyana təlimat verib.**



*"Beynəlxalq qurumların buna heç bir reaksiya verməməsi ikili standartlardan irəli gəlir"*

# Feyklə mübarizə adı altında Paşinyan müxalif medianı əzməyə başlayıb, dünya susur...

***Azər Həsrət:** "Bununla Paşinyan söz azadlığını açıq formada məhdudlaşdırır"*

Paşinyan guya ictimai rəyin manipulyasiya edilməsinə milyonlar sərf edən dairələrin olduğunu deməklə, Milli Təhlükəsizlik Xidmətinin direktoruna bildirib ki, aralarında aparılan söhbət nəticəsində onun rəhbərlik etdiyi qurumun bu məsələdə konkret nəticələr əldə edəcəyinə əmindir.

Paşinyanın bu qərarı erməni ictimaiyyətində narazılıqla qarşılanıb. Bir çoxu onun Milli Təhlükəsizlik Xidməti rəisinə verdiyi tapşırığı, belə bir qurumun bu kimi işlərə cəlb edilməsini utancverici hal kimi dəyərləndirib. Çünki saxta profillər vasitəsilə sosial şəbəkələrdə geniş təbliğat işlərinə milyonlar sərf edilməsinin bütün dunyada mövcud olduğu, bunun həll yolunun hələ də tapılmadığı qeyd edilir. Hətta bunun həllinin inkişaf etmiş demokratik ölkələrdə belə tapılmadığı vurğulanır. Qeyd olunur ki, Milli Təhlükəsizlik Xidməti saxta profillərə qarşı mübarizə adı ilə sosial şəbəkələrə müdaxilə etməyə başlayarsa, bu yaxşı nəticə verməyəcək. Belə olan halda, MTX müdaxilə etdiyi məqamdan etibarən informasiya mənbələri və sosial şəbəkələr araşdırma obyektlərinə çevriləcəklər.

Ən başlıcası isə, Paşinyanın bu addımı ölkədə söz azadlığının məhdudlaşdırılmasına hesablanıb. Yəni bunun Paşinyan ona qarşı müxalif mövqedən çıxış edənləri neytrallaşdıracaq. Bu, bir növ, güc yolu ilə onların susdurulmasına hesablanıb. Çox qəribədir ki, demokratiya bayrağı adı altında hakimiyyətə gələn Paşinyanın bu antidemokratik addımlarına hələ də beynəlxalq reaksiya yoxdur. Xüsusən də Qərbin bunu görməzdən gəlməsi təəccüb doğurur.

Maraqlıdır, Paşinyanın bu antidemokratik addımına niyə beynəlxalq reaksiya yoxdur?

**Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, Paşinyanın bu fəaliyyətinə hələ də beynəlxalq reaksiyanın olmaması ikili standartlarla bağlıdır:** "Əvvələ Paşinyan sosial mediann gücündən istifadə edərək siyasi meydanda qüvvə topladı. Hakimiyyətə gəlməzdən əvvəl sosial media ilə yaxşı işləyirdi. Küçə inqilabı da məhz sosial media üzərindən təşkil olundu. Bütün bu prosesdə məhz saxta profillərdən geniş şəkildə istifadə edildi. Paşinyan və tərəfdarları məhz saxta profillər üzərindən öz təbliğatlarını qururdular və ictimai rəyi yönləndirdilər. Ona görə də Paşinyanın indi feyk profillərlə mübarizə aparmaq istəməsi qeyri-səmimi görünür. Çünki bir zamanlar həmin feyk profillərdən istifadə edərək hakimiyyətə gəlib, amma indi onlara müharibə elan edib. Paşinyanın yanaşması o deməkdir ki, bizə olar, başqalarına olmaz. Demokratiyada belə şey olmur. Bununla Paşinyan söz azadlığını açıq formada məhdudlaşdırır. Bununla ictimai rəydəki müxalif fikirləri susdurmaq məqsədi güdür. Bunun demokratiyaya zidd bir addım olduğu ortadadır. Beynəlxalq qurumların buna heç bir reaksiya verməməsinə gəldikdə isə, bu, ikili standartlardan irəli gəlir. Azərbaycanda sosial media ilə bağlı adi bir fikir səsləndiriləndə dərhal beynəlxalq reaksiya özünü göstərir. Bəyanatlar səslənir və s. Ancaq Ermənistanda baş verənlərə reaksiya yoxdur. Ona görə ki, beynəlxalq qurumlar, hər zaman olduğu kimi, Ermənistanda baş verən neqativ halları görmək istəmirlər. Onların qabağında Ermənistan hakimiyyətinin bu addımına göz yummaq vəzifəsi qoyulub. Ona görə də məqsədyönlü şəkildə buna göz yumurlar".

***Vidadi ORDAHALLI***

**Müxalifət təmsilçiləri arasında qovğa, qarşılıqlı ittihamlar səngimir. Buna ReAL Partiyası funksionerlərinin Avropa türnesində nümayiş etdirdikləri mövqe səbəb olub. Keçmiş səfir, hazırda müxalif mövqedə olan Arif Məmmədovun anonim mənbəyə istinadən ReAL-çıların Avropada İlham Əliyevin apardığı islahatları təqdir etməsi ilə bağlı verdiyi açıqlamadan sonra bu qovğa daha da dərinləşdi.**

# Radikallar İlqar Məmmədovu siyasi satqınlıqda suçlayır, bəs konstruktivlər...





***Fərəc Quliyev:** "Hətta müxalif mövqedə olan bir adam iqtidarın milli maraqlar naminə addımını görürsə, onu dəstəkləməlidir"*

***Tural Abbaslı:** "Bir qrup var, sanki kimin əsl müxalifət olub-olmadığına dair lisenziya verməyə iddialıdır"*

Müxalifətin bir qanadı ReAL-çıları açıq xəyanətdə günahlandırmağa başladı. Xüsusilə də AXCP və Milli Şura təmsilçiləri ilə ReAL arasında bir neçə gündür söz atışması, qarşılıqlı ittihamlar yer alır. ReAL funksionerləri Arif Məmmədovun fikirlərinin doğru olmadığını desələr də, sözügedən müxalif dairə onlardan əl çəkmir. Ən son belə söz atışması Milli Şura rəhbərliyində təmsil olunan, sabiq millət vəkili Gültəkin Hacıbəyli ilə ReAl funksioneri Natiq Cəfərli arasında yaşanıb. Natiq Cəfərli Hacıbəylinin "Facebook" üzərindən səsləndirdiyi ittihamlara elə öz səhifəsindən cavab verib: "Kimsə eyni mərkəzdən idarə edilən prosesi davam etdirmək istəyirsə, buyursun, amma bu mənim sonuncu cavabımdır. Gör nə şərait yaranıb ki, həm iqtidar mediası (Eynulla Fətullayev), həm özünü müxalifət mediası adlandıranlar (Qənimət Zahidov) eyni mövqedən çıxış edirlər. Bu haqda ayrıca düşünün, indi isə keçək səsləndirilən fikirlərə və cavablara. Gültəkin xanımın yazısından sitat: "Mənim hörmətli Arif Məmmədovun statusunu paylaşaraq "Nəhayət ki, bilindi. Böyük biabırçılıqdır" kimi başlıq yazdığımı dedi. Həmin statusun fotosunu şərh bölümündə paylaşacağam. Görün mən həmin sözləri yazmışammı, yoxsa Natiq bəy mənə böhtan atır".

Cavabım: Yaxşı ki, ağıllı insanlar "YouTube" kəşf ediblər, hamı girib bir daha baxa bilər. Çıxışımda qeyd etdim ki, Milli Şura üzvləri Arif bəyin xəyal ürünü olan sözləri böyük biabırçı hadisə kimi tirajlayıb yayırlar. Aparıcının, "kimlər bunu edir" sualına cavab olaraq, Gültəkin xanımın adını çəkdim. Xanım özü də etiraf edir ki, statusu paylaşıb, başlığı da belədir: "Bu nədir? Əgər burada yazılanlar doğrudursa, çox pis...", deməli: 1) Gültəkin xanım bu sözləri (anonim birinin kiməsə guya nəsə deməsini) ciddi qəbul edib paylaşır, 2) Gültəkin xanım hətta bunun doğru ola biləcəyi ehtimalına inanaraq bu addımı atıb.

Mən məhz buna iradımı bildirmişəm, Arif Məmmədov anonim mənbəyə istinad edib, öz absurd fikirlərini də əlavə edərək nəsə yazıb, Gültəkin xanım isə buna inanmaq istəyir. Halbuki, mənim də, sədrimizin də telefon nömrələri xanımda var - bir zəng edə, bizim də mövqeyimizi öyrənə bilərdi, əgər təbii ki, həqiqəti axtarırdısa...

Sonda bir daha qeyd edirəm: Bizim bu ölkədə bir rəqibimiz var - YAP, məqsədimiz hakimiyyəti, sistemi, hökuməti kökündən dəyişməkdir. Bunun üçün çalışmışıq, çalışırıq, çalışacağıq, kimlərsə sistem dəyişikliyi baş versə, öz qabiliyyətlərinə bələd olduqları üçün orada yer tapa bilməyəcəklərini düşünürlərsə, bu onların öz problemidir. Amma bu günə qədər öyrəşmişdilər ki, illərdir bunlar çamur atacaqlar, hamı da abrını gözləyib susacaq - olmadı, bizlə bu keçməz! Ona görə də təşvişə düşüb iqtidarlı-ənənəvi müxalifətli birgə total hücuma keçiblər. Bu, şəxsən mənim son cavabımdır, onlara sərf edəcək zamanımız yoxdur, məmləkətdə yeni siyasi sistem və düzən üçün fürsət, həm də onlar üçün fürsət yaratmağa davam edəcəyik!"

Maraqlıdır ki, AXCP və Milli Şuradan başqa müxalifətin digər radikal qanadı və konstruktiv müxalif mövqeyində olan tərəfi heç də ReAL-ın hərəkətini təftiş etməkdə maraqlı görünmür.

**Hakimiyyətə qarşı konstruktiv müxalif mövqeyi ilə seçilən partiyanın sədri, millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə bildirdi ki, xüsusən də anarxist mövqedə olan müxalif nümayəndələrində qəribə bir yanaşma var:** "Mən onlara heç radikal da deməzdim. Onların necə radikal olduqlarını biz yaxşı görmüşük. Sanki 25 ildir qan düşmənçiliyi ilə məşğuldurlar. Buna müxalifətçilik demək olmaz. Hətta müxalif mövqedə olan bir adam iqtidarın milli maraqlar naminə addımını görürsə, onu dəstəkləməlidir. Burda qəribə nə ola bilər ki? Həmin anarxistlər fərdlərə qarşı mübarizə aparırlar. Hakimiyyətə qarşı müxalifsənsə çatışmazlıqları tənqid et, öz variantını təklif elə. Yaxşı işi isə təqdir etmək lazımdır. Həmin anarxistlərin ReAL-la bağlı yanaşmasını qərəzli sayıram. Həm də özünüifşadır. Bu, siyasi mübarizə metodu deyil".

**Nisbətən radikal müxalif mövqeyi ilə seçilən Ağ Partiyanın sədri Tural Abbaslı da ReAL-a edilən hücumları yersiz adlandırdı:** "Müxalifət çalışmalıdır ki, bir-birinin addımlarını təftiş etməsin. Bir qrup var, sanki kimin əsl müxalifət olub-olmadığına dair lisenziya verməyə iddialıdır. Sənin nə işin var ki, kim-kimi dəstəkləyib? Bunu özü bilər, idarə heyəti bilər. Bundan şou düzəltmək lazım deyil. "Mənim kimi düşünməyən məndən deyil" - bu, bolşevik yanaşmasıdır. Bu, siyasi baxımdan da qeyri-etikdir. Buna sabah qoy seçici qiymət versin. Düz addım atmırsa, onun nüfuzu aşağı düşəcək, səninki yox. Əgər ReAl son addımları islahat kimi qiymətləndirirsə, özü bilər. Bizim də başqa mövqeyimiz varsa, bu, partiyamızın mövqeyidir. Təftişi dayandırmaq lazımdır".

*Məhəmmədəli QƏRİBLİ*

---

**"Dağlıq Qarabağ münaqişəsinin nizamlanması nəticəsində davamlı sülhdən hər kəs faydalanacaq". Bunu Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini Brüsseldə Azərbaycan-Aİ Əməkdaşlıq Şurasının iclasının yekunu üzrə mətbuat konfransında deyib.**

# Aqressiv siyasətin özünə ziyanlı ağır nəticələri barədə Avropa komissarından Ermənistana növbəti xatırlatma...



*"Nəticə çıxarmasa, bu, işğalçı ölkə üçün bütün mənalarda yaxşı olmayacaq"*

***Məhəmməd Əsədullazadə:** "Mogerininin qeyd etdikləri işğalçı Ermənistana ünvanlanıb"*

Onun sözlərinəgörə, münaqişənin həlli ilə bağlı təmaslar ümidlər yaradır: "Ötən həftə ATƏT-in Minsk Qrupu həmsədrlərinin himayəsi ilə Azərbaycan və Ermənistan liderlərinin müsbət görüşünün şahidi olduq. Ali səviyyədə təmasların genişlənməsi və atəşkəs rejiminin pozulmasının əhəmiyyətli dərəcədə azalması bizdə prosesin irəliyə doğru hərəkət edə biləcəyinə ümidlər yaradır". F.Moqerini onu da bildirib ki, davamlı sülhdən təkcə Azərbaycan və Ermənistan vətəndaşları deyil, bu ölkələrdən kənarda da faydalanacaqlar, çünki davamlı sülh bütün regiona öz potensialını reallaşdırmağa kömək edəcək. Ümumilikdə F.Mogerininin bu fikirlərini Ermənistana ünvanlanan bir mesaj kimi dəyərləndirmək olarmı? Çünki münaqişənin həll olunmadığı ötən illər ərzində regionun üstünlüklərindən, həyata keçirilən bir sıra layihələrdən bəhrələnməyən yeganə ölkə Ermənistandır. Digər region ölkələri az və ya çox bütün bunlardan bəhrələnib. Təkcə Ermənistan bütün bunlardan heç nə əldə etməyib. O baxımdan F. Mogerininin məlum açıqlamasını ekspertlər necə dəyərləndirir?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, Aİ təmsilçisinin fikirləri əslində birbaşa Ermənistana ünvanlanıb:** "Əvvəla, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli Avropa İttifaqının siyasi və təhlükəsizlik maraqlarına cavab verir. Nəzərə almaq lazımdır ki, məhz bu qurumun tabeliyində olan beynəlxalq və regional əhəmiyyətli təşkilatlar Azərbaycanın ərazi bütövlüyünə səs veriblər, Ermənistqnın işğalçılıq siyasəti açıq vurğulanıb. Ötən illər ərzində qəbul olunan bir sıra qətnamələr buna əyani sübutdur. O baxımdan hesab edirəm ki, Mogerininin qeyd etdikləri işğalçı Ermənistana ünvanlanıb. Çünki ilk növbədə sülhün əldə edilməsi işğal olunmuş ərazilərin boşaldılmasından asılıdır. Ona görə də sülhə zərbə vuran məhz rəsmi İrəvandır. Ermənistan işğalçı siyasət yeritdiyi üçün təcrid vəziyyətindədir və iqtisadi baxımdan yerində sayır. O üzdən, Ermənistan bu mesajdan nəticə çıxarmalıdır. Nəticə çıxarmasa, bu, işğalçı ölkə üçün bütün mənalarda yaxşı olmayacaq. Ölkədə iqtisadi vəziyyət geriləyəcək, miqrasiya güclənəcək və s. Avropa İttifaqı daima Azərbaycanı strateji tərəfdaş hesab edir. Qitənin enerji diversifikasiyasında Azərbaycan mühüm rol oynayır. Ona görə də Aİ-nin ölkəmizə dəstəyi xüsusidir. Hesab edirəm ki, Minsk Qrupunda Fransanı Avropa İttifaqı təmsil etsə daha məqsədəuyğun olar. O zaman münaqişənin həllində ciddi dəyişikliklər ola bilər".

*Vidadi ORDAHALLI*

# Paşinyan siyasi müxalifətə qarşı rəsmi təqib əmri verdi - demokratiyaya keçid dövrü yarımçıq bitdi...

**Özünü xalqa demokratik rejim kimi sırımağa çalışan Nikol Paşinyan iqtidarının əslində daha çox diktatura mahiyyətinə malik olması hər keçən gün daha əyani şəkildə təsdiqini tapmaqdadır. Ən müxtəlif sahələrdə kobud surətdə pozulan hüquqlar, daxili və xarici siyasətdə yaşanan çoxsaylı problemlər cəmiyyətin Nikol Paşinyanın hakimiyyəindən narazılığını daha böyük sürətlə artırmaqdadır.**

Ermənistan parlamentinin sabiq vitse-spikeri, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov bu xüsusda bildirir: "Ermənistanda hər şey bir-birinə qarışıb. Baş nazir Nikol Paşinyanın davranışları və uğursuz daxili-xarici siyasəti Ermənistanın təhlükəsizliyinə təhdid yaradır".

O bildirib ki, Paşinyan hökuməti əhaliyə verdiyi vədləri yerinə yetirmir: "Hökumət maaşların artırılmasını və yeni iş yerlərinin açılmasını vəd edi, amma əvəzində guya optimallaşdırma aparaq iş yerlərini ixtisara salır. Sevgi və həmrəylik vəd edir, amma əksinə, ölkəmizdə nifrəti təbliğ edirlər. Söz verirlər ki, qisas alınmayacaq, amma siyasi həbslər həyata keçirirlər. Bu siyahını uzun-uzadı davam etdirmək olar. Qanunun aliliyindən danışırlar, amma öz ölkəsinin polis alayını ələ keçirən silahlı terrorçuları əfv edirlər. İstənilən demokratik ölkədə polis alayını ələ keçirənlər indi həbsxanada idi, amma Ermənistanda onlar sərbəst şəkildə siyasi fəaliyyətlə məşğuldur. Bu absurddur". Şarmazanov vurğulayıb ki, Paşinyan ziddiyyətli bəyanatların sayına görə rekorda imza atıb: "Hökumət həm də əhalini aldadır. İşsizlər ordusu hər ötən gün artır. Bəs hanı verilən vədlərin real nəticəsi?". Baş verənləri şərh edən "1-in.am" portalı isə yazır:

"Belə görünür, özü üçün yaranan təhdidi nəzərə alan hökumət sosial şəbəkələr, media üzərində də ciddi nəzarət həyata keçirmək istəyir. Hər halda baş nazir Nikol Paşinyan hökumət toplantısında yalan məlumat və informasiya manipulyasiyaları deyilən məsələyə toxunaraq Milli Təhlükəsizlik Xidmətinin direktoru Artur Vanetsyana bu məsələ ilə məşğul olmağı tapşırıb.

Nikol Paşinyan "Bəli, ölkəmizdə söz və informasiya azadlığına zəmanət verilib, amma bəzi kriminal çevrələr ictimai rəyi manipulyasiya etməyə milyonlar itirirsə, onda bu, milli təhlükəsizlik məsələsidir" deyib və Artur Vanetsyana üz tutaraq əlavə edib: "Bu barədə söhbətimiz olub. Ümid edirəm ki, sizin xidmət bu baxımdan konkret nəticələr təmin edə bilər. Belə deyək, sosial şəbəkələrdə bunun guya bizim inqilabımızla bağlı olduğunu göstərmək üçün, o cümlədən keçmiş hakimiyyət təmsilçilərinə münasibətdə zorakılığa çağıran inqilabi bayraq altında çıxış edən yalan xəbərlərə qədər. Bu sayaq manipulyasiyalar çox sərt əks-zərbə almalıdır. Düşünürəm ki, Ermənistan qanunvericiliyi, əlbəttə, söz və fikir ifadə etmək azadlığı hüququnu heç cür şübhə altına almadan belə bir imkan verir. Bu, keçə bilməyəcəyimiz qırmızı xətdir".

Nikol Paşinyanın bu açıqlaması artıq sosial şəbəkələrdə coşğun münasibət hasilə gətirib. Demək olar, hamı bu fikirlə həmrəydir ki, baş nazirin MTX başçısına tapşırığı, özəlliklə güc qurumlarını və MTX-ni bu məsələyə qatmaq yolverilməzdir. Əslində, yalan xəbərlər, feyknyus və informasiya manipulyasiyaları problemi kürəsəl müşküldür. İnformasiya texnologiyalarının və özəlliklə sosial şəbəkələrin inkişafı buna gətirib ki, pul xərcləyərək ictimai rəyi azdırmaq və yalan məlumat verməklə cəmiyyəti çaşdırmaq olar. Bu problemin həlli hələlik tapılmayıb. Xüsusən



söz azadlığının ən ali və danılmaz dəyər sayıldığı inkişaf etmiş demokratik ölkələrdə də tapılmayıb. Avtoritar dövlətlərdə, xüsusən də müxtəlif dövlət qurumlarının informasiya meydanına və sosial şəbəkələrə müdaxilə cəhdi nəzərə alınmaqla repressiv üsullarla yalan məlumata və manipulyasiyaya qarşı əks təsir göstərməyə cəhd edən Rusiyada durum nisbətən başqadır. Son illərdə Rusiyada bu problemi tənzimləyən bir sıra qanunlar qəbul edilib.

Bəli, yalan, manipulyativ məlumat problemi Ermənistanda da var. Bəllidir ki, hakimiyyət opponentləri, birinci növbədə keçmiş sistemin təmsilçiləri bu imkandan yararlanır. Aydındır ki, onlar bu məqsədə böyük məbləğdə pul itirirlər. Bəs Nikol Paşinyanın problemin həllini MTX-ə vermək üsulu yerindədirmi? Qətiyyən yox. Çünki, bir yandan Milli Təhlükəsizlik Xidmətini yalan məlumat və manipulyasiyalarla mübarizədə təsəvvür etmək çətindir, o biri yandan aydındır ki, şərti deyilsə, MTX sosial şəbəkələrə girsə, bu heç bir yaxşı nəticə verməyəcək. Bu məsələdə özbaşınalıq ehtimalı son dərəcə böyükdür və MTX, ya da istənilən başqa bir qurum hər şeyi asanlıqla necə gəldi bir-birnə qarışdıra bilər. Və Paşinyan bunun söz azadlığına təsir etməli olduğu haqda nə qədər bəyan etsə də, aydındır ki, MTX-nın bu sahəyə qatılması söz və ifadə azadlığını pozacaq, çünki MTX hansı məlumatın mötəbər, hansının şübhəli olduğunu qət etdiyi andan kütləvi informasiya vasitələri və sosial şəbəkələr senzura obyekti olacaq. Bu, məqsədin nə dərəcədə düzgün və səmimiliyindən asılı olmayaraq qaçılmazdır. Buna görə də Nikol Paşinyan Milli Təhlükəsizlik Xidmətinə belə göstəriş verməklə istər-istəməz öz çıxışında keçilməsindən imtina haqda danışdığı qırmızı xətti keçib. Ümid etmək olar ki, ictimai rəy bu məsələdə həlledici önəm kəsb edəcək və hökumət son nəticədə güc qurumları vasitəsilə saxta informasiya və manipulyasiyalarla mübarizə aparmaqda son dərəcə təhlükəli niyyətindən imtina edəcək. Biz təkrar edirik ki, bu problem dünyanın, demək olar, bütün ölkələrində var və demokratik dövlət kimi bu problemin həllinin axtarışındadır, Ermənistan da beləcə daha effektli və ən önəmlisi, söz azadlığını zərrəcə təhdid etməyən həll axtarmalıdır". Bu yazılanlardan aydın görünür ki, Paşinyan onun üçün təhdid yaradanları artıq zor gücünə sıradan çıxarmağa hazırlaşır.

***Nahid SALAYEV***

# Rusiya Liviyadakı üsyançı general Haftarı rəsmən müdafiə etdi

**Rusiya general Xəlifə Haftarın rəhbərlik etdiyi Liviya Milli Ordusuna Tripoliyə hücumu dayandırmaq çağırışı edən BMT Təhlükəsizlik Şurasının açıqlamasına veto qoyub.**

Baki-xeber.com xəbər verir ki, Haftarın ordusunun Tripoliyə hücumu ilə bağlı BMT TŞ-nin 15 üzvünün iştirak etdiyi görüşdə Böyük Britaniya rəsmi açıqlama qəbul edilməsini təklif edib.



Açıqlama mətnində Haftara bağlı qüvvələrə bütün hərbi əməliyyatları dayandırmaq və ölkədəki bütün qüvvələrə gərginliyi azaltmaq çağırışı edilməsi nəzərdə tutulur.

Ancaq Rusiya tərəfi açıqlamada dəyişiklik edilməsini və sadəcə general Haftara deyil, bütün qüvvələrə hərbi əməliyyatları dayandırmaq çağırışı edilməsini tələb edib.

ABŞ isə Rusiyanın bu tələbini rədd edib. Böyük Britaniyanın rəsmi bəyannaməsi Rusiyanın veto etməsinə görə qəbul edilməyib.



## Trampdan İranla bağlı qalmaqallı qərar... ABŞ tarixində ilk dəfə bir ölkənin ordusunu terror təşkilatı elan etdi

**ABŞ Prezidenti Donald Tramp İran İnqilab Keşikçiləri Korpusunu (Sepah) terror təşkilatı elan edib.**

Baki-xeber.com xəbər verir ki, bu qərarla Birləşmiş Ştatlar ilk dəfə başqa bir ölkənin ordusunu terror təşkilatları siyahısına salmış oldu.

# Vyanada yüksək Qarabağ danışıqlarından sonra ABŞ və Fransa rəhbərləri Putin kimi davranmadı...

**Məlum olduğu kimi, mart ayının 29-da ATƏT-in Minsk Qrupu həmsədrlərinin təşkilatçılığı ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında ilk rəsmi görüş oldu. Görüşdən sonra hər iki tərəf mediaya açıqlama verdi.**

*"Ortada konkret nəticə olmadığından, digər həmsədr ölkələri ümumi məzmunda verilən açıqlamalar qane edir"*

## **Hatəm Cabbarlı:** *"Bu onunla bağlıdır ki, Rusiya problemə daha yaxın ölkə sayılır"*



ATƏT-in Minsk Qrupu həmsədrləri isə görüşün yekunu ilə bağlı qısa bəyanat yaymaqla kifayətləndilər. Ən maraqlısı isə budur ki, ATƏT-in digər həmsədr ölkələrindən fərqli olaraq, Rusiya Prezidenti Vladimir Putin hər iki tərəflə Vyana görüşü ilə bağlı telefonla müzakirə apardı. Düzdür, tərəflər arasında baş tutan telefon zənglərinə təşəbbüslərdə fərqlər nəzərə çarpdı. Paşinyanın özü Putinə zəng vurub hesabat vermişdi. Azərbaycan tərəfi ilə danışmaq təşəbbüsü isə Moskvadan gəlmişdi. Əsas budur ki, rəsmi Moskva hər iki tərəflə Vyana görüşü ətrafında müzakirələr aparmaqda maraqlı olub. Bəs digər həmsədr ölkələrin rəhbərlərindən niyə biz analoji təşəbbüsü görmədik? Tərəflərin verdikləri görüş sonu açıqlaması bəlkə onları tam qane edib, yoxsa…

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, tərəflərin Vyana görüşündən sonra KİV-ə açıqlaması oldu:** "Ancaq tərəflərin bəyanatlarında bir-birilə ziddiyyət təşkil edən məqamlar meydana çıxdı. Bundan başqa, Nikol Paşinyan Ermənistana dönər-dönməz, Rusiya Prezidenti Vladimir Putinə zəng vurub hesabat verdi. Həmin görüşdən sonra ATƏT-in Minsk Qrupunun həmsədrləri ənənəvi mövqelərinə uyğun olaraq görüşün qarşılıqlı güvən şəraitində keçdiyini, perspektivə böyük inamın olduğuna dair standart tipli açıqlama verdilər. Belə pozitiv bəyanatın fonunda rəsmi Ermənistan yeni müharibəyə hazırlaşdıqlarını müdafiə naziri Tonoyanın dilindən səsləndirdi. Sonra isə Paşinyan Tonoyanın açıqlamasını dəstəklədiyini dedi. Bütün bunlar Vyana görüşünün nə qədər uğursuz olduğunu göstərməsi baxımından xüsusi əhəmiyyətə malik idi. ATƏT-in Minsk Qrupunun son illər ərzində problemin həlli istiqamətində göstərdiyi təşəbbüslərin heç biri ciddi nəticə vermir".

Ekspertin sözlərinə görə, buna baxmayaraq, biz Rusiyanın fərdi şəkildə fəallığını görürük: "Bu onunla bağlıdır ki, Rusiya problemə daha yaxın ölkə sayılır. Problemin tərəfi olan ölkə ilə ümumi sərhədə malikdir. SSRİ dönəmindən qalan geosiyasi maraqları var. Ən ciddi siyasi təhlilçilərin də ifadə etdiyi kimi, problemin həlli açarını əlində saxlayan ölkədir.

Buna görə də biz Rusiyanın Minsk Qrupundan kənardakı fəaliyyətində də belə aktivliyi görürük. Amma Rusiyanın fəallığı fonunda meydana çıxan təklifləri tərəflərin və digər həmsədrlərin qəbul edib-etməyəcəyi hələ ki, sual altındadır. Hələ ki, ortada konkret nəticə olmadığından, digər həmsədr ölkələri ümumi məzmunda verilən açıqlamalar qane edir".

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyədə seçki saxtakarlığının daha çox məsuliyyətini kim daşıyır - hakim partiya, ya ana müxalifət...

**Məlum olduğu kimi, Türkiyədə martın 31-də keçirilən bələdiyyə seçkiləri ilə bağlı proses səngimək bilmir. Hakim AKP ilə ana müxalifət sayılan CHP arasında İstanbul uğrunda mübarizə daha da kəskinləşir.**



*"Çünki seçkinin keçirilməsində, bir sıra işlərin təşkilində və nizamlanmasında hakimiyyətin rolu böyükdür"*

## **Ramil Hüseynov:** *"Sözügedən məsələdə məsuliyyət payı daha çox iqtidarın üzərinə düşür"*

Ölkənin ən böyük şəhərində seçkilərdə qanun pozuntularının olması ilə bağlı AKP iqtidarının şikayətinin ardından səslər yenidən sayılır.

Hazırkı vəziyyətlə bağlı son məlumatı mətbuatla bölüşən CHP sədrinin köməkçisi Muharrem Erkek deyib ki, bu ana qədər sandıqların 72 faizində səslərin təkrar sayımı bitib. Bu məlumatdan belə aydın olur ki, seçkilərdə qalib elan olunan CHP namizədi Əkrəm İmamoğlu AKP-nin iddiaçısı Binəli Yıldırımı 17.132 səs fərqi ilə qabaqlayır. Ancaq bu da heç nə demək deyil. Belə ki, milyonlarla seçicisi olan İstanbulda 17 min səs elə də böyük fərq deyil. Nəticələr hər an dəyişə bilər.

Türkiyədə keçirilən bələdiyyə seçkilərində diqqətçəkən məqamlardan biri də iqtidarla müxalifətin bir-birini ittiham etməsidir. Məsələ ondadır ki, iqtidarla müxalifət bir-birini seçkilərin nəticələrinin saxtalaşdırılmasında kəskin şəkildə ittiham edirlər. Belə olan halda, ortaya sual çıxır, kim bu məsələdə daha çox məsuliyyət daşıyır? Yəni iqtidar seçkini saxtalaşdırıbsa, o zaman belə çıxır ki, administrativ resurslardan istifadə edib. Yox, əgər müxalifət seçkini saxtalaşdırıbsa, o zaman belə çıxır ki, iqtidar seçkinin keçirilməsinə nəzarət edə bilməyib. Göründüyü kimi, çox mürəkkəb bir mənzərə yaranır. Təbii ki, Türkiyə qardaş ölkə olduğu üçün, biz onların daxili işinə qarışmırıq. Bütün bunlarla yanaşı, səslənən qarşılıqlı ittihamlar fonunda, sözügedən məsələdə kimin daha çox məsuliyyət payı var?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, bu məsələdə, istər-istəməz, iqtidarın məsuliyyəti daha böyük görünür:** "Bunun da bir sıra səbəbləri var. Əvvəla Türkiyədə bələdiyyə seçkiləri Azərbaycanda da böyük maraqla izlənildi. Bu da təbiidir. Çünki Türkiyə Azərbaycana qardaş ölkədir. Əlbəttə biz də istəməzdik ki, İstanbulda seçkilərin nəticələri ilə bağlı belə vəziyyət yaransın. Hesab edirəm ki, ümumən, bütün tərəflər məsuliyyət daşıyır. Ancaq sözügedən məsələdə məsuliyyət payı daha çox hakim partiyanın üzərinə düşür. Çünki seçkinin keçirilməsində, bir sıra işlərin təşkilində və nizamlanmasında hakimiyyətin rolu böyükdür. Allah göstərməsin, tutaq ki, hansısa seçki məntəqəsində güclü terror hadisəsi baş versəydi, o zaman təhlükəsizliklə bağlı məsuliyyət hakimiyyətin üzərinə düşərdi. Şükürlər olsun ki, belə xoşagəlməz hal yaşanmadı. AKP 17 ildən çoxdur Türkiyədə hakimiyyətdədir. Ötən illər ərzində hakim partiya bir sıra işlər görüb. O cümlədən, ölkənin seçki qanunvericiliyinə bir sıra dəyişikliklər edilib. Bütün bunlardan çıxış edərək hesab edirəm ki, hər iki tərəf məsuliyyət daşısa da, iqtidarın məsuliyyəti daha böyükdür. Hər halda, gedən proseslərin nəticələrini gözləmək lazımdır. Ümid edirəm ki, gedən proseslər qardaş ölkədə xoşagəlməz fəsadlara gətirib çıxarmayacaq".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Avroittifaqın Azərbaycana və Ermənistana yanaşmasında fərq dərinləşir - səbəb Qarabağ məsələsidir...



**Birmənalı həqiqətdir ki, aparılan uğurlu xarici siyasət nəticəsində Azərbaycanın dünya miqyasında nüfuzu xeyli artıb, ölkəmiz yalnız regionda gedən proseslərdə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən bir çox hadisələrə də artıq təsir göstərmək imkanı qazanıb. Məhz bu vəziyyətdə dünyanın siyasi, iqtisadi güc mərkəzlərinin Azərbaycanla əməkdaşlığa daha çox meyllənməsi, ölkəmizin mövqeləri ilə hesablaşdıqları da aydın müşahidə olunur.**

Proseslərin bu səpkidə inkişafından xüsusi narahatlıq duyan tərəflərdən biri isə işğalçı Ermənistandır.

İrəvanda çox açıq şəkildə müşahidə edilir ki, Bakının getdikcə güclənən beynəlxalq mövqeyinə nəinki Ermənistan, heç indiyə qədər onun əsas dayaq nöqtəsi olan erməni lobbisi də davam gətirə bilmir. Əksinə, ermənilərin dünya miqyasında mövqeyi Azərbaycanın apardığı xarici siyasət nəticəsində daha sürətlə məhv olur. Məhz bu durumda Dağlıq Qarabağ münaqişəsi ilə də ilgili Azərbaycan Ermənistan üzərində diplomatik qalibiyyətlərinin sayını artırır. Hazırda qeyd olunan xüsusda Ermənistanda böyük narahatlıq predmetinə çevrilən məqamlardan biri də Avropa İttifaqının prosesə münasibətidir. Qurumun mövqeyini Ermənistanda böyük əksəriyyət İrəvanın Bakıya məğlubiyyətinin real təzahürü qismində qəbul edir.

Xatırladaq ki, Avropa İttifaqı Azərbaycanla əlaqələrin genişləndirilməsinə böyük önəm verir. Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclası da bunun növbəti təsdiqi oldu. İclasdan bir daha bəlli oldu ki, enerji və nəqliyyat məsələlərilə yanaşı, Avropa İttifaqı təhlükəsizlik, terrorizmə və ekstremizmə qarşı mübarizədə ölkəmizlə əməkdaşlıqda maraqlı tərəf kimi çıxış edir. Eyni zamanda, Azərbaycan üçün kifayət qədər həssas olan Dağlıq Qarabağ məsələsində də qurum ölkəmizin mövqeyini tam şəkildə dəstəkləyir. Brüssel bildirir ki, münaqişə ilə bağlı status-kvonun saxlanması uzun çəkə bilməz və beynəlxalq hüquqa uyğun siyasi həll tapmaq vacibdir. Eyni zamanda, bundan öncə Avropa İttifaqı bir məqamı da qeyd edib ki, Qarabağ məsələsi üzrə sülh danışıqları indiki formatda davam etdirilməlidir. Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti üzrə komissarı Yohannes Han Brüsseldə bu xüsusda tam açıq mətnlə bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair aparılan danışıqların formatı dəyişməməlidir: "Yeni format yaratmaq yox, hazırda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair məsələlərin müzakirə edildiyi mövcud danışıqlar formatının qorunub saxlanması vacibdir. Münaqişənin həllində Avropa İttifaqının dəstəyinə gəlincə, biz etimadın qurulması tədbirlərini və bütövlükdə regionda, xalqlar arasında əməkdaşlığı dəstəkləyə bilərik. Bunun üçün müəyyən imkanlar var. Təbii ki, bu, vaxt aparan prosesdir". Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini münaqişənin nizama salınması prosesində ərazi bütövlüyünün mühüm amil olduğunu bildirib. Avropa İttifaqı Şurasının sədri Donald Tusk isə münaqişə ilə bağlı qeyd edib ki, status-kvo uzun müddət qala bilməz və münaqişə beynəlxalq hüquq prinsipləri çərçivəsində öz siyasi həllini tapmalıdır, danışıqların formatının dəyişdirilməsi isə mümkün deyil. Məhz belə vəziyyət Ermənistanda getdikcə daha böyük şok effekti yaratmaqdadır. Məsələyə yenidən nəzər salan Ermənistanın sabiq hakim partiyası olan Respublika Partiyasının sədr müavini Armen Aşotyan Brüsseldə Moqerini-Məmmədyarov həmsədrliyi ilə Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Şurasının iclasının keçirilməsinə diqqət çəkərək, bu iclasın nəticələrinin Ermənistanda diqqət mərkəzində olmasının vacibliyini vurğulayıb.

Yuxarıda qeyd olunduğu kimi, ötən həftə Brüssel şəhərində Azərbaycan-Avropa İttifaqı Əməkdaşlıq Şurasının 16-cı iclası baş tutub. İclasda Azərbaycan tərəfindən xarici işlər naziri Elmar Məmmədyarov, Avropa İttifaqı tərəfindən isə xarici siyasət və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə Federika Moqerini, eləcə də Avropa qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissar Yohannes Han iştirak edib. İclasda Dağlıq Qarabağ münaqişəsinin həlli, Avropa İttifaqı-Azərbaycan tərəfdaşlıq gündəliyinə daxil olan məsələlər, yeni ikitərəfli saziş layihəsi üzrə davam edən danışıqlar, Tərəfdaşlıq Prioritetləri, Şərq Tərəfdaşlığı və digər məsələlər ətrafında müzakirələr aparılıb. Müzakirələrdən bir daha bəlli olub ki, Avropa İttifaqı Qarabağ məsələsində Azərbaycana tam dəstək verir. Elə bu da Ermənistanda ciddi təşviş doğurur. Armen Aşotyan da bunu nəzərə alaraq qeyd edir ki, mövcud templərlə və aşağı səviyyəli iş keyfiyyəti ilə bağlı olaraq Ermənistan 2017-ci ilin noyabr ayında olan üstünlüyünü itirə bilər. O, öz "Facebook" səhifəsində narahatlıqlarını sıralayıb və Ermənistanın XİN rəhbərinə, baş nazirinə suallar ünvanlayıb: "1. Bir neçə dəfə qeyd etdiyim kimi, Armen Aşotyan-Azərbaycan arasında məhz fəaliyyətdə olan Avropa komissiyası dönəmində imzalanacaq yeni müqaviləyə hazırlıq aparılır. Qeyd edim ki, bizim üçün Qarabağ münaqişəsinin nizamlanması məsələsinin necə formalaşdırılması və Ermənistanla imzalanmış razılaşmaya uyğun olub-olmaması maraqlıdır. XİN-dən bugünədək cavab gözləyirik. 2. Ehtimal etdiyim kimi, Aİ Azərbaycanda insan haqlarına münasibətini yumşaldır. Qlobal maraqlar daha önəmli olmağa başlayır, buna görə də bizim baş nazirə deyin ki, demokratik çevrilişə çox da ümid eləməsin. 3. Aİ Əliyevlə Paşinyan arasında son görüşə müsbət yanaşıb, humanitar və əhalinin sülhə hazırlanması sahəsində əldə edilmiş razılaşmaları qısa vaxtda həyata keçirməyə çağırıb. Razılaşın ki, bizim burda baş nazirə dəqiq suallarımız var: konkret olaraq Vyanada hansı razılığı əldə ediblər? 4. Azərbaycan qazının Aİ-yə tədarükü məsələsi daimi diqqət mərkəzindədir. Xatırladım ki, bu tədarükün 2020-ci ildən həyata keçirilməsi nəzərdə tutulur. Öz növbəsində bu, Ermənistan üçün, xüsusilə də Avropanın cənubunda və Balkanlarda problemlər yaradacaq". Aşotyan əlavə edib ki, mövcud templərlə və aşağı səviyyəli iş keyfiyyəti ilə bağlı olaraq Ermənistan 2017-ci ilin noyabr ayında olan üstünlüyünü itirə bilər. Bundan yayınmaq üçün o, real islahatlara keçməyi, diplomatik, o cümlədən parlament fəaliyyətini fəallaşdırmağı tövsiyə edib. Lakin bunun qısa zaman kəsiyində baş tutmasına inanmadığını da vurğulayıb. Qeyd edib ki, belə vəziyyətdə Avropa İttifaqının da dəstəyini alan Azərbaycan Qarabağ məsələsində mövqelərini daha da gücləndirir. Erməni siyasətçi qeyd edib ki, Azərbaycandan fərqli olaraq, Ermənistanın xarici siyasətinin Avropa istiqaməti başdan-ayağa problemlərdən ibarətdir. "Hökumət Avropa İttifaqı ilə tərəfdaşlıq sazişi çərçivəsində öhdəsinə götürdüyü vəzifələrin heç birini icra etməyib. Rəsmən bəyan edirəm: 2018-ci il iyunun 1-dən bugünədək sazişdə nəzərdə tutulan islahatlardan heç biri həyata keçirilməyib. Hökumətin hesabatında görülən konkret tədbirlərin əvəzinə keçirilən iclaslar, ezamiyyətlər və digər nəticəsiz və tamamilə boş məsələlərdən bəhs olunur". Əvvəllər Ermənistan parlamentində Avropa İttifaqı ilə danışıqlar üzrə komissiyanın sədri olmuş siyasətçinin sözlərinə görə, Aİ Ermənistana ayrılan 100 milyon avro vəsaiti dondurub: "Yəni xarici sərmayə axınının zəruriliyindən hər zaman ağız dolusu danışan hökumət, hətta cəlb olunmuş investisiyadan da istifadə etmək qabiliyyətinə malik deyil. Belə vəziyyətdə Qarabağ məsələsində Avropa İttifaqında mövqeyimizin sarsılması da təəccüblü olmamalıdır".

Burada onu da xatırladaq ki, ümumiyyətlə, Qarabağ məsələsində Avropa İttifaqının mövqeyi Azərbaycanın maraqlarına tam cavab verir. Avropa İttifaqının Brüsseldə keçirilən sonuncu Şərq Tərəfdaşlığı Sammitində qəbul edilən Birgə Bəyannamədə də qurum bu xüsusda konkret mövqe sərgiləyib. Həmin vaxt Ermənistanın çoxsaylı cəhdlərinə baxmayaraq, Birgə Bəyannamədə Şərq Tərəfdaşlığının bütün dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı olaraq bir daha dəstəklənib. Bunun ardınca Avropa İttifaqının Qarabağ danışıqlarında mövcud formatın saxlanmasının vaciblyini birbaşa Paşinyanın diqqətinə çatdırması isə İrəvan üçün növbəti diplomatik zərbə sayılır. Elə Ermənistanın "Past" qəzeti də yazır ki, Avropa İttifaqının Azərbaycan və Ermənistana yanaşması fərqlidir. Qəzet yazır ki, məhz bu səbəbdən Ermənistandan fərqli olaraq, Azərbaycan rəsmilərinin Brüssel səfərləri daha çox yaddaqalan nəticələrlə müşayiət olunur: "Digər tərəfdən, Avropa İttifaqı Qarabağ münaqişəsinin həllinin uzanmasından da narazıdır. Halbuki, Ermənistanda hakimiyyət dəyişən zaman gözləntilər başqa idi".

Belə vəziyyət bir daha Avropa İttifaqı çərçivəsində də Azərbaycanın Ermənistan üzərində mühüm üstünlüklər əldə etməsinin real təzahürü sayılır. Eyni zamanda, belə vəziyyət Ermənistanın populist siyasətinin uğursuzluğunun növbəti nümunəsidir. Avropa İttifaqı da daxil olmaqla, beynəlxalq qurumların mövqeyi çox aydın göstərir ki, Qarabağ münaqişəsinin əsasını işğal olunmuş ərazilərin azad edilməsi və məcburi köçkünlərin geri qayıtması təşkil edir. Dünyada bu fikir qəbul olunur ki, Cənubi Qafqazda təhlükəsizliyin təmin olunması və sülhün əldə edilməsi üçün Ermənistana təzyiqlərin artırılması zəruri şərtdir. Eyni zamanda, işğalçılıq siyasətinə son qoyulması üçün qəti praktik addımlar atmalı və təcavüzkarı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər. Məhz Avropa İttifaqı və digər beynəlxalq qurumların prosesə belə yanaşması indi Ermənistanda ciddi narahatlıq predmetidir. İşğalçı ölkədə hesab edilir ki, hadisələrin bu səpkidə inkişafı Ermənistanın mövqelərini daha sürətlə sarsıdır. Bu halda İrəvan Bakıya müqavimət göstərməsinin mümkünsüzlüyünü də getdikcə daha aydın görür.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bəzi KİV-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keşmiş sədri, məşhur ilahiyyatçı-alim Rafiq Əliyevlə bağlı maraqlı məlumat yayılıb. Həmin məlumatda iddia edilir ki, Dubayda yaşayan iş adamı İsa Məhəmməd Salihin oğlu ilə sabiq komitə rəhbəri arasında biznes qalmaqalı mövcuddur.**

# Sabiq komitə sədrinin əcnəbilərlə 1,6 milyon dollarlıq otel mübahisəsi və Azərbaycan dövlətinin imici məsələsi...





Bildirilir ki, İsa da ilahiyyatçı alimdir və 1996-cı ildə namizədlik dissertasiyasını müdafiə edib. Elmi rəhbəri isə Rafiq Əliyev olub. Elə həmin vaxt tərəflər Bakı İslam Universitetinin (hazırda İlahiyyat İnstitutu) tələbələri üçün yataqxana tikintisi barədə razılığa gəliblər. Yeni layihədə paylar haqqında danışılıb və bu işdən gəlir götürmək də nəzərdə tutulub. Tərəflərin öhdəlikləri 14 iyun 1997-ci ildə imzalanmış müqavilədə öz əksini tapıb: "İşin bitdiyini hesab edən İsa vətəninə yollanıb və əmin olub ki, "POWELLINDASTRIES Gmbh" şirkətinin timsalında Azərbaycan tərəfi obyekti müqaviləyə uyğun tikib istifadəyə verəcək. Ərəb tərəfi yalnız vaxtlı-vaxtında maliyyə dəstəyi göstərməli idi. Şirkətə rəsmi olaraq Rafiq Əliyevin qızı başçılıq etsə də, bütün məsələləri Dövlət Komitəsinin keçmiş sədri özü həll edirdi.

Dubaylı iş adamının 1,6 milyon dollarlıq obyektin yerində yataqxana əvəzinə otelin tikildiyini bilib-bilməməsini söyləmək çətindir. Lakin müqavilədə "İrşad" islamşünaslıq tədqiqatları mərkəzi kimi göstərilir. Əslində isə elə ilk günlərindən o, otel kimi fəaliyyət göstərməyə başlayıb.

Düzdür, iki il ərzində ərəb iş adamı mütəmadi olaraq gəlirdən öz payını alıb. Bu müddət ərzində onun hesabına 190 min dollar köçürülüb. Lakin 2002-ci ildən bu ödənişlər dayanıb, o vaxtdan Əliyevin telefonu da dubaylı iş adamının üzünə bağlanıb.

İsa Məhəmməd Salih Bakıya gələrək məsələləri burada həll etmək istəyib, lakin onu başa salıblar ki, bu cür yüksək vəzifəli adamla münaqişəyə girməyə dəyməz.

Sonradan iş adamının oğlu Rafiq Əliyevlə görüşmək fikrinə düşüb. Lakin Əliyev qonağın dalınca maşın göndərəcəyinə söz versə də, sonradan zənglərə cavab verməyib. Bir qədər sonra DİN-ə verilmiş ərizənin nəticəsi olaraq iş adamını oğlu ilə birlikdə qəbul etmiş müstəntiq Fikrət Məmmədov da telefon zənglərinə cavab verməyib. İlk zəngdən sonra şikayətçiyə bildirilib ki, Rafiq müəllimlə danışıblar və tezliklə bütün anlaşılmazlıqlar həll ediləcək. Lakin sonradan əlaqə kəsilib".

Çox maraqlıdır ki, qeyd edilən məlumata qarşı tərəf kimi Rafiq Əliyevin mövqeyi yoxdur. Biz müxtəlif vasitələrlə Rafiq Əliyevlə əlaqə saxlamağa çalışdıq. İstər sosial şəbəkədəki hesabı üzərindən ona olunan müraciətimiz, istərsə də etdiyimiz telefon zəngləri cavabsız qaldı. Məcbur qalıb adı bu qalmaqalda hallanan "İrşad" otelin özü ilə əlaqə saxladıq. Zəngimizə özünü otelin baş meneceri kimi təqdim edən Tural adlı şəxs cavab verdi. Menecer bildirdi ki, mediada səslənən bu tip ittihamlara onların cavab vermək səlahiyyəti yoxdur: "Belə bir səlahiyyətə yalnız otelin sahibi malikdir. Biz yalnız oteldəki xidmətlərlə bağlı olan hər hansı məsələni cavablandıra bilərik".

Otelin müdirinin kim olduğunu soruşduq. Menecer R.Əliyevin adını çəkdi. Belə olan təqdirdə onunla əlaqə yaratmaqda bizə köməklik göstərməsini xahiş etdik. Menecer bizdən təmsil olunduğumuz KİV-in adını və əlaqə nömrəmizi götürdü və lazım olsa R.Əliyevin özünün bizimlə əlaqə saxlayacağını bildirdi. İş gününün sonuna qədər gözləsək də, hörmətli R.Əliyevdən bir səs çıxmadı. Əslində, bəzi KİV tərəfindən tirajlanan bu cür sərt ittihamla bağlı R.Əliyevin özü münasibətini bildirməkdə maraqlı olmalıdır. Ancaq onun nümayiş etdirdiyi susqun və mediadan yayınma mövqeyi bizi təəccübləndirdi. Çünki bəzən susmağı başqa əlamət kimi də qəbul edə bilərlər…

Güman edirik ki, yaxın günlərdə əlaqədar şəxslər məsələyə aydınlıq gətirməklə, ən azı, Azərbaycan dövlətinin adına, imicinə uyğun olmayan söz-söhbətlərin qarşısını alacaqlar.

***Məhəmmədəli QƏRİBLİ***

**Son zamanlar daşınmaz əmlak bazarında qiymətlərdə dəyişiklik yaşanır. Ötən illərdən fərqli olaraq, bu il köhnə mənzillərin qiyməti qalxıb. Yeni tikililərin isə qiyməti ucuzlaşıb.**

# Bakıda mənzillərin qiymətində yeni proses - "novostroyka"lar ucuzlaşır, köhnə mənzillər bahalaşır...

***Nüsrət İbrahimli:*** *"Bakıda ay ərzində təkrar mənzillərin qiyməti bahalaşıb, yeni mənzillərin qiyməti isə ucuzlaşıb"*



## *"İlkin mənzil bazarında ucuzlaşma onunla bağlıdır ki..."*

Ev alqı-satqısı ilə məşğul olan maklerlər bildirirlər ki, son zamanlar alıcılar köhnə tikililərdən mənzil almağa üstünlük verirlər. Təbii ki, alıcı marağı hansı sahədə üstünlük təşkil edirsə, qiymət artımı da həmin sahədə özünü göstərər. Yeni tikililərin qiymətinə gəlincə isə, maklerlər qeyd edirlər ki, burada mənzil almağa yerli vətəndaşlar deyil, daha çox xaricilər üstünlük verirlər. Bu da say baxımından azlıq təşkil etdiyi üçün, yeni tikilən mənzillərin satış qiymətinə təsir edir.

**Daşınmaz əmlak məsələləri üzrə ekspert Nüsrət İbrahimli bizimlə söhbətində qeyd etdi ki, Bakıda ay ərzində təkrar mənzillərin qiyməti bahalaşıb, yeni mənzillərin qiyməti isə ucuzlaşıb.** Onun sözlərinə görə, təkrar mənzil bazarında qiymətlərdə 1.13 faiz, il ərzində isə 5.81 faiz artım olub: "İlkin mənzil bazarında isə qiymətlər ay ərzində 3 faiz azalıb, lakin il ərzində 5.68 faiz artım olub. İlkin mənzil bazarında ucuzlaşma onunla bağlıdır ki, bu mənzillərin qiyməti indiyə kimi kifayət qədər qalxıb və artıq ucuzlaşmağa başlayır".

Həmsöhbətimiz onu da vurğuladı ki, paytaxt Bakıda vətəndaşların mənzil almağa güclü tələbatı var: "Bir tərəfdən əhalinin real gəlirləri mənzil bazarının tələbləri ilə üst-üstə düşmür, digər tərəfdən isə zahirən paytaxtda tikinti gözümüzə çox görünsə də, əslində, onun həcmi olduqca azdır"

N.İbrahimlinin fikrincə, mənzil tikintisinin həcmini azaldan daha bir neçə səbəb var: "Bu səbəblərdən biri ölkədə tikinti aparan şirkətlərin tam qaz, işıq, su, kanalizasiya təminatına cavab verməməsidir. Bəzən elə olur ki, şirkətlər belə tələblərə cavab verməmədikləri üçün tikinti aparmaqdan yayınırlar".

Ekspert onu da qeyd etdi ki, həyət evlərinin qiymətində bahalaşma yaşanır.

**Onun sözlərinə görə, həyət və bağ evlərinin qiymətində ay ərzində 4.75 faiz, il ərzində 2.18 faiz artım olub: "Artım mövsümi xarakter daşıyır. Yay mövsümü yaxınlaşdıqca, həyət və bağ evlərinə tələbat artır".**

***Günel CƏLİLOVA***

**Müəyyən müddətdir ölkə gündəmində xüsusi yer tutan məsələlərdən biri də bankların kredit faizlərini azaltması ilə bağlıdır. Hesab edilir ki. bu xüsusda müvafiq addımların atılması şəraitində bankların həm ölkə iqtisadiyyatında rolu daha da artar, həm də bank kreditlərindən faydalanıb iş quranların sayında çoxalma olar.**

# Bankların faiz siyasəti - iqtisadi inkişafı ləngidən ciddi faktorlardan biri...




Ekspertlər isə xatırladır ki, dövlət başçısı İlham Əliyevin "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" 28 fevral 2019-cu il tarixli Fərmanından sonra banklar tərəfindən kredit faizlərinin aşağı salınması ilə bağlı əslində müvafiq imkanlar yaranıb. Çünki problemli kreditlər məsələsinin həlli fonunda bankların likvidliyi artır. İndiki vaxtda bank faizlərinin aşağı salınması üçün hökumətin atdığı daha bir mühüm addım isə Maliyyə Bazarlarına Nəzarət Palatasına da kreditlər üzrə maksimum həddin, eləcə də komisyon haqları və bank xidmətləri üzrə maksimum həddin müəyyənləşdirilməsi səlahiyyətinin verilməsidir. Bu da nəticə etibarilə kredit faizlərinin aşağı salınması üçün bir şərait formalaşdırır. Yəni artıq ölkədə kredit faizlərinin aşağı salınması üçün iqtisadi zəmin var.

Qeyd edək ki, Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycanda kreditlər üzrə orta faiz dərəcəsini azaltmağı təklif edir. Təklif hələ ki, müzakirə mərhələsindədir. Qurumun faizlərlə bağlı təklifini dəyərləndirən iqtisadçı Vüqar Bayramov da vurğulayır ki, bank faizlərinin azaldılması hazırda gündəmdə duran ən vacib məsələlərdən biridir. Ekspert bildirib ki, Azərbaycanda kommersiya banklarının kredit faizləri ilə depozit faizləri arasında kəskin fərq var: "Belə ki, kommersiya bankları orta hesabla depozitləri manatla 7 faizlə, xarici valyuta ilə 1 və daha aşağı faizlə cəlb edir, ancaq manatla kreditləri 30 faizlə, xarici valyuta ilə kreditləri isə 12-16 faizlə təklif edirlər. Bu da kreditlərlə bank faizləri arasında kəskin fərqdən xəbər verir. Mövcud statistikaya diqqət yetirsək, Azərbaycanda kredit portfelinin həcmi 12 milyard manatdan bir az artıq, depozit portfeli isə 8 milyard manatdır. Bu o deməkdir ki, depozit portfeli kredit portfelinin 65 faizini təşkil edir. Yəni hər 100 manatın 65 manatı məhz depozit hesabına verilir. Praktik olaraq banklar bir vətəndaşdan vəsaiti cəlb edib, bəzi hallarda digər vətəndaşa 5-6 dəfə baha qiymətə təklif edir. Bu baxımdan faizlərin tənzimlənməsi çox vacibdir".

İqtisadçı hesab edir ki, faizlərin bank sektorunda rəqabətin gücləndirilərək tənzimlənməsi daha məqsədəuyğun olardı: "Bu, strateji bir yanaşmadır və Palata həm də bank sektorundakı rəqabəti gücləndirməlidir. Bununla da faizlərin strateji dövrdə daha çox azalmasına nail olmaq mümkün olacaq". V.Bayramovun sözlərinə görə, kredit faizləri, o cümlədən komisyon haqları və bank xidmətlərinə maksimum həddin müəyyənləşdirilməsi səlahiyyətləri Palataya kredit faizlərini tənzimləməyə imkan verir: "Bank sektorunda rəqabətin gücləndirilməsi, bankların likvidliyinin artırılması və sağlamlaşdırılması, idarəetməsinin formalaşdırılması istiqamətində fəaliyyətlər güclənərsə, bu, praktik olaraq kredit faizlərinin tənzimlənməsinə imkan verəcək. Manat və dollar krediti faizlərində bu şərtlər daxilində azalmalar mümkündür.

Bankların hazırda daha çox gəlir əldə etməkdə və yüksək faizli kreditləşmədə meylli olduğunu nəzərə alsaq, faizlərdə azalmalar qısa zamanda olmayacaq. Kredit faizlərində bu ilin sonuna doğru, 2020-ci ildə azalmalar müşahidə ediləcək".

Ekspert orta hesabla həm manat, həm də dollar kreditlərində 3 faizə yaxın azalmanın olacağını deyib: "Bütün hallarda Palatanın mövqeyi çox önəmlidir. Palata yalnız inzibati deyil, bu sektorda rəqabəti gücləndirməklə də faizlərin aşağı düşməsinə çalışmalıdır. Ancaq ümumilikdə mövcud səlahiyyətlərin və bank sektorunda mənfəətin olmasını nəzərə alsaq, azalma mümkündür".

Digər ekspertlərin də fikrincə, Maliyyə Bazarlarına Nəzarət Palatası indiki halda çalışmalıdır ki, kredit bazarında faizlərin optimallaşdırılması həyata keçirilsin. Yuxarıda qeyd olunduğu kimi, bu halda bankların ölkə iqtisadiyyatında rolu əhəmiyyətli dərəcədə yüksələ bilər.

**Çünki indiki vəziyyətdə faizlər kifayət qədər yüksəkdir. Həm istehlak, həm də biznes kreditlər üzrə faizlərin yüksək olması nəticə etibarilə bank kreditlərindən səmərəli istifadəyə imkan verir. Halbuki, vətəndaşlar, xüsusən də sahibkarlar daha aşağı faizlə kredit almaq imkanında olsalar, bu hal sonda iqtisadi inkişafın daha dinamik xarakter almasına gətirib çıxarar.**

***Tahir TAĞIYEV***

**Məlum olduğu kimi, Prezident İlham Əliyev bu il fevralın 28-də problemli kreditlərlə bağlı məsələyə son qoydu. Prezidentin imzaladığı fərmana əsasən, fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə, bu fərman qüvvəyə mindiyi günə Mərkəzi Bankının elan etdiyi məzənnəyə uyğun olaraq, dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək.**

# Problemli kreditlərə görə kompensasiyalar saytının özündə də problemlər var - insanlara fərq qoyulur?

## *Vüqar Bayramov: "Hazırda banklar vətəndaşlara kompensasiyanın nə qədər ödənilməsi ilə bağlı tam məlumat verə bilmirlər"*



Problemli kreditlərlə bağlı vətəndaşların banklara ödədikləri artıq məbləğin geri qaytarılması üçün banklarda xüsusi komissiya yaradılıb. Kompensasiyanın hesablanıb ictimaiyyətə açıqlanması üçün Maliyyə Bazarlarına Nəzarət Palatası "Kompensasiya məbləğinin sorğulanması" xidmətinə başlayıb.

Xidmətdən Palatanın saytına daxil olaraq istifadə etmək olar. Palatanın saytının "Problemli kreditlərin həllinə dair məlumat" hissəsində "Kompensasiya məbləğinin sorğulanması" pəncərəsi yaradılıb. Belə ki, bank müştərisi adını və parolunu daxil etməklə alacağı kompensasiya məbləğini öyrənə bilər.




https://pk.fimsa.az/az/kompensasiya?fbclid=IwAR3j5LCDp7uLMZ_IV3y-kM4QV2s2yzfxBkjOpwv8UQFQpTsyVHCVE_Tte74 linkinə daxil olmaqla adını və soyadını yazıb ona nə qədər kompensasiya ödənilməsini öyrənməsi mümkündür. Lakin istifadəçilərin əksəriyyəti qeyd olunan sayta daxil olmaqda çətinlik çəkir. Şikayətçilər bildirirlər ki, sayta giriş çox olduğu üçün, yüklənmə yaranır və vətəndaşlar onlara nə qədər kompensasiya ödənilməsini öyrənə bilmirlər.

*"Siyahı tam hazır olandan sonra qeyd edilən sayt üzrə vətəndaşlara nə qədər kompensasiya veriləcəyi tam şəkildə bəlli olacaq"*

**İqtisadçı-ekspert Vüqar Bayramov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, kompensasiyanın ödənilməsi ilə bağlı mexanizm martın 15-nə qədər hazırlanmalı idi. Artıq sistem, demək olar ki, hazırdır:** "Vətəndaşlara kompensasiyanın ödənilməsi sistemi isə aprelin 15-dən sonra həyata keçiriləcək. Çünki aprelin 15-nə kimi kompensasiya ödəniləcək vətəndaşların siyahısı tam şəkildə hazır olacaq. Aprelin 15-dək dövlət başçısının "Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanının əhatə dairəsinə düşən vətəndaşların siyahısı tam hazır olacaq. Siyahı tam hazır olandan sonra qeyd edilən sayt üzrə vətəndaşlara nə qədər kompensasiya veriləcəyi tam şəkildə bəlli olacaq".

**Həmsöhbətimiz onu da bildirdi ki, hazırda banklar vətəndaşlara kompensasiyanın nə qədər ödənilməsi ilə bağlı tam məlumat verə bilmirlər.**

O üzdən, Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən xüsusi sayt yaradılıb. Saytın yaradılmasında məqsəd vətəndaşların məlumatlandırılmasıdır. Hazırda saytda yüklənmə gedir. Nəzərə almaq lazımdır ki, sayta daxil olan vətəndaşların sayı çox olduğu üçün, yüklənmə baş verir".

***Günel CƏLİLOVA***

# İmtahan Mərkəzinin sınaq imtahanları özəl kursların qiymətindən azı 4 dəfə bahadır

## *Məhərrəm Zülfüqarlı: "Sınaq imtahanına görə 20 manat ödəniş etmək çox böyük rəqəmdir və abituriyentlərin ziyanınadır"*

**Ali təhsil müəssisələrinə qəbul imtahanı yaxınlaşdıqca, abituriyentlərdə həyəcan, məsuliyyət hissi daha da artır. Təbii ki, yüksək nəticə göstərmək hər bir şagirdin arzusudur. Bunun üçün bir neçə mərhələdən keçmək lazımdır.**



*"Hazırkı qiymət şagirdlərin sözügedən imtahanlarda iştirakını məhdudlaşdırır"*

Şagirdlər əvvəlcə məktəbə, sonra repetitor yanına gedir. Daha sonra öz biliklərini yoxlamaq üçün Dövlət İmtahan Mərkəzinin, özəl kursların təşkil etdiyi sınaqlarda iştirak edirlər.

İmtahana hazırlıq kimi dəyərləndirilən sınaq imtahanları bir sıra üstünlüklərə malikdir. Hər bir abituriyent öyrəndiklərini yoxlamaq üçün sınaq imtahanlarından mütəmadi olaraq istifadə edir. Bu zaman abituriyentdə özünə inam yaranır. Nə qədər çox sınaq imtahanına qatılırsa, bu bir o qədər onun hazırlıq səviyyəsinə müsbət təsir edir. Abituriyent hansı mövzuda zəif olduğunu sınaq imtahanında müəyyən edir. Ən başlıcası, bu onların imtahana psixoloji hazırlığına müsbət təsir edir. Sınaq imtahanı abituriyentlərdə imtahan vərdişlərinin formalaşmasına və bilik səviyyəsini real qiymətləndirməsinə kömək edir. Abituriyent sınaqlarda yaxşı nəticələr əldə edirsə, artıq imtahanda həm həyəcandan xilas olur, həm də bir qədər əminlik yaranır.

Ancaq bəlli olub ki, ali məktəblərə hazırlaşan abituriyentlərin sınaq imtahanlarında iştirakı ilə bağlı problemlər var. Məsələ ondadır ki, ali məktəbə hazırlaşan abituriyentlər Dövlət İmtahan Mərkəzinin keçirdiyi sınaq imtahanlarına daha çox önəm verirlər və təqdim olunan suallara daha ciddi yanaşırlar. Hesab edirlər ki, həmin suallar qəbul imtahanlarındakı suallara daha yaxındır. O üzdən, məhz DİM-in keçirdiyi sınaq imtahanlarında iştirak etməyə xüsusi üstünlük verir və hazırlıq səviyyələrini həmin imtahanlarla ölçürlər. Ancaq problem ondadır ki, sınaq imtahanlarında iştirak qiyməti bahadır. Məsələn, DİM-in keçirdiyi sınaq imtahanlarında iştirak etmək üçün abituriyent 20 manat ödəniş etməlidir. Buna da hər şagirdin imkanı çatmır. Ancaq bundan fərqli olaraq, özəl kursların keçirdiyi sınaq imtahanlarında iştirak etmək 5 manata başa gəlir. Bir sözlə, qiymətlərin baha olması imkan vermir ki, şagirdlər tez-tez sınaq imtahanlarında iştirak edib hazırlıq səviyyələrini artırsınlar. Tutaq ki, sınaq imtahanlarında qiymət 3 manat olsa, hər dəfə yüz minlərlə ali məktəbə hazırlaşan abituriyent bu fürsətdən istifadə etmiş olacaq.

O baxımdan, ekspertlər sınaq imtahanlarında iştirak qiymətinin baha olmasını necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən tarix elmləri doktoru, professor Məhərrəm Zülfüqarlının sözlərinə görə, sınaq imtahanlarında qiymətlərin baha olması ədalətsizdir və abituriyentlərin öz biliklərini yoxlamalarını məhdudlaşdırır:** "Bunun, ümumiyyətlə, heç bir əsası yoxdur. Sınaq imtahanına görə 20 manat ödəniş etmək çox böyük rəqəmdir və abituriyentlərin ziyanınadır. Nəzərə almaq lazımdır ki, qəbul imtahanlarından fərqli olaraq, sınaq imtahanı ildə bir neçə dəfə keçirilir. Hər dəfə bütün abituriyentlərin belə imtahanlarda iştirak etmək imkanı olmur. Halbuki, abituriyentlərin tez-zez belə imtahanlarda iştirak etməsinə ehtiyac var. Ona görə də DİM-in keçirdiyi sınaq imtahanlarında qiymətlərin 20 manat olması çox böyük rəqəmdir. Bu məsələdə hər bir Azərbaycan ailəsi nəzərə alınmalıdır. Çünki söhbət yüz minlərlə abituriyentdən gedir. Hesab edirəm ki, bununla bağlı ödənişlər 3 manatdan yuxarı olmamalıdır. Belə olsa, şagirdlər tez-tez sınaq imtahanlarında iştirak edərək, öz bilik səviyyələrini artırarlar. Bu həm də ölkə başçısının həyata keçirdiyi uğurlu sosial siyasətə uyğun olar. Ancaq hazırkı qiymət buna imkan vermir. Hazırkı qiymət abituriyentlərin sınaq imtahanlarında iştirakını məhdudlaşdırır. Pulu olmayan həmin sınaq imtahanlarında iştirak edə bilməyəcək. Bu da, ümumilikdə, onların hazırlıq səviyyəsinə və təhsilə mənfi təsir edəcək. Ona görə də qiymətlər minimuma endirilməlidir. Ən yaxşısı o olardı ki, ümumiyyətlə, DİM-in keçirdiyi sınaq imtahanları pulsuz olsun".

***Vidadi ORDAHALLI***

# Milli Teleradio Şurası tarixində ilk dəfə şəxslərə qarşı ən sərt qərara əl atdı

**Azərbaycan televiziyalarının heç də hamısında etik qaydalara, ictimai əxlaq məsələlərinə diqqət yetirilmir. Bir çox hallarda, həm bəzi proqram aparıcıları, həm də ayrı-ayrı qonaqlar danışarkən etik normaları gözləmirlər. Hətta elə hallar olub ki, nəinki qonaqlar, hətta aparıcılar özləri belə, etikadan kənar hərəkətlər edib, söyüş işlədiblər.**

Onu da bildirək ki, bir-birinə hücum edən, saçyolduya çıxan, ağır şəkildə təhqirə yol verən şou-biznesçilər nəinki efirdən uzaqlaşdırılmayıb, hətta proqramdan-proqrama, telekanaldan-telekanala dəvət alıblar. Belə halların bəzi telekanallarda baş verdiyinin vaxtaşırı şahidi olmuşuq. Lakin bu hallara son olaya qədər ələqədar qurumlar tərəfindən heç bir reaksiya verilməyib, verilsə də, ciddi cəza tədbiri görülməyib. "Space" telekanalının "Hər səhər" verilişində baş verən olay isə, sözün həqiqi mənasında, Azərbaycan ictimaiyyətini silkələdi. Bu mənada ki, iki populyar şou müğənnisi efirdə, özü də canlı yayımda söyüşlə müşayiət olunan mahnı oxudular. O mahnını onların ifasında, demək olar ki, sosial şəbəkə istifadəçilərinin əksəriyyəti dinlədi və bu da onların hiddətinə səbəb oldu.



Söhbət Rəşad İlyasov və Rüfət Axundovun ifasından gedir. R.İlyasovun və R.Axundovun mahnını söyüşlə oxuması Milli Televiziya və Radio Şurasını (MTRŞ) sərt qərar qəbul etməyə vadar etdi. Məlum olduğu kimi, olayla bağlı sözügedən televiziya cərimələnib.

Bundan başqa, müğənni R.Axundova və R.İlyasova bütün teleməkanda qadağa qoyulub. Hətta yayılan məlumatlara görə, bundan əlavə, R.İlyasov solisti olduğu Azərbaycan Televiziyasından da uzaqlaşdırılıb. O da qeyd edilir ki, "Hər səhər" verilişinin səs rejissoru da işindən uzaqlaşdırılıb.

Adları çəkilən müğənnilərə qanunla efir qadağası qoyulması ictimaiyyət tərəfindən müsbət qarşılanıb. Onların aqibəti bundan sonra efirlərə çıxıb oxuyan müğənnilərə, şou-biznesçilərə əməlli-başlı dərs olacaq.

Xatırladaq ki, hadisə ilə bağlı müğənni R.Axundov açıqlama versə də, R.İlyasov hələlik açıqlama verməyib. R.Axundov açıqlamasında "Əzizlərim, canlı yayımda mən söyüş söyməmişəm. Bunu kimsə düşmənçilik və ya zarafatla edibsə, bu heç də yaxşı alınmayıb. Kimsə götürüb üstünə söyüş qoyubsa, ayıb olsun" - deyə hərəkətlərinə bəraət qazandırıb.

Ekspertlər qeyd edirlər ki, indiyə qədər efirdə söyüş söyən heç bir müğənniyə qarşı rəsmi efir qadağası olmayıb. Zaman-zaman bəzi müğənnilərin qeyri-rəsmi şəkildə efirə buraxılmadığı haqqında məlumatlar yayılıb, lakin heç biri rəsmi formada olmayıb. R.İlyasov və R.Axundova isə qadağa rəsmən qoyulub.

## *Yadigar Məmmədli: "Mənə elə gəlir ki, şuranın atdığı bu addım, onlara qoyduğu efir qadağası digərlərinə də dərs olacaq"*

## *Sadiq Qarayev: "Televiziyaların özlərində də nöqsanlar çoxdur"*

**Media eksperti Yadigar Məmmədli bizimlə söhbətində bildirdi ki, MTRŞ-ın atdığı bu addım təqdirəlayiqdir. Onun sözlərinə görə, bu olay başqa şou-biznesçilərə bir dərsdir.** "Təkcə bu olayla bağlı deyil, ümumiyyətlə, Azərbaycan efir məkanında indiyə qədər çoxlu qanun pozuntusu baş verib. Bu zaman qanunun müxtəlif bəndləri pozulub. Bilirsiniz ki, dəfələrlə təkrarlanan bu cür hallarla bağlı ictimaiyyət narazılıq edib, mətbuat bu məsələni geniş şəkildə işıqlandırıb. Televiziya məkanında həm milli-mənəvi dəyərlərimizin qorunmaması, həm də cəmiyyətin düzgün informasiya ilə təmin olunmaması ilə bağlı çoxlu qanun pozuntusu baş verib. Buna da Milli Teleradio Şurası yetərli münasibət bildirməyib və bildirsə də, bu bizim tələblərimiz səviyyəsində olmayıb. Son olayla bağlı isə Milli Teleradio Şurasının qəbul etdiyi qərar təqdirəlayiqdir. Mənə elə gəlir ki, şuranın atdığı bu addım, onlara qoyduğu efir qadağası digərlərinə də dərs olacaq. Hər halda, bu mühitdəki cəzasızlıq sükutunun pozulması deməkdir. Ümid edək ki, bu cür hallar bir daha baş verməyəcək".

Y.Məmmədli onu da qeyd etdi ki, teleradio məkanında, xüsusən də canlı verilişlərdə, tok-şoularda əndazəni keçən hallar baş verir və bunların qarşısı alınmalıdır.

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-alim Sadiq Qarayev də bizimlə söhbətində MTRŞ-ın qərarının düzgün olduğunu qeyd etdi.** "Çox təəssüf ki, son zamanlar cəmiyyətin müxtəlif təbəqələri içərisində öz fikirlərini, etirazlarını, nifrətlərini söyüşlə ifadə etmək halları çoxalıb. Xüsusilə də siyasət və şou aləmində bu yolverilməzdir. Bu, həmin insanların (söyüş işlədlənlərin) intellekt bazasının, fikri ifadə etmək potensialının yetərincə olmamasından irəli gəlir. Mən bir ziyalı kimi hər bir Azərbaycan vətəndaşını, məşğul olduğu peşədən asılı olmayraq, xalqımızın milli-mənəvi dəyərlərinə sadiq olmağa, hörmət qoymağa, yeniyetmələrimizə, gənclərimizə örnək olmağa, dünya xalqlarının bizə gülməsinə imkan verməməyə dəvət edirəm. Milli Teleradio Şurasının məlum qərarını dəstəkləyirəm. Söyüş söyən, ümumiyyətlə, faydalı fikirlər, müsbət emosiyalar əks etdirməyən şəxslərin efirə çıxması məsələsinə şura tərəfindən baxılmalıdır. Yəni 10 milyonluq xalq kimə, nəyə və niyə baxır, baxmalıdır? Bunu düşünmək lazımdır. Televiziyaların özlərində də nöqsanlar çoxdur, bir müğənninin soyuducusunu iki saat xalqa göstərməkdənsə, elmi, ədəbiyyatı, mədəniyyəti, Azərbaycan təbiətini və faydalı məsələləri müxtəlif təsiredici metodlarla cəmiyyətə göstərmək daha yaxşı olar" - deyə S.Qarayev bildirdi.

***İradə SARIYEVA***

# "Dilini qarnına qoymasan Elinanın ölümü sənin boynuna atılacaq"

*Ekspertlər intihar etmiş məktəbli qıza görə direktoru da müqəssir sayırlar...*

**Son günlər cəmiyyətdə, sözün həqiqi mənasında, şok effekti yaradan 14 yaşlı məktəbli qızın intihara əl atması, canına qəsd etməsi ciddi müzakirə edilir. 162 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Elina Hacıyevanın hansı səbəbdən vəziyyətdən çıxış kimi bu yolu seçməsi çoxsaylı sual doğurur. Elinanın intihar səbəbinə müxtəlif rakurslardan yanaşılır.**

Əlbəttə, yeniyetmənin bu addımını hər kəs qınaqla deyil, ağrı ilə qarşılayır.

Sosial şəbəkələrdə özünü E.Hacıyevanın rəfiqəsi kimi təqdim edən yeniyetmə bildirir ki, Elina da, onun bacısı da, hətta onların xalası qızı da mütəmadi olaraq məktəbdə təhqir olunub, ayrıseçkiliyə məruz qoyulub. Hətta o qeyd edib ki, Elinaya məktəbdə əxlaqsız, pozğun damğası da qoyanlar varmış. Bütün bu hallara qarşı isə nə Elinanın oxuduğu sinfin rəhbəri, nə də məktəbin müdiriyyəti heç bir tədbir görməyib. Rəfiqəsi bildirib ki, məktəb direktoru Elina intihar etdikdən sonra onun özünü də hədələyib ki, əgər dilini qarnına qoymasan, susmasan, onun ölümü sənin boynuna atılacaq. Rəfiqəsi onu da bildirib ki, yaxın ərazidə yerləşən məktəblərdən birində oxuyan oğlanla Elina arasında sevgi münasibətləri də olub. Onun dediyinə görə, sonra oğlanla arası pozulub, hətta oğlan onu əlində olan video ilə şantaj edəcəyini də deyib. Bundan sonra qızın psixoloji vəziyyəti lap ağırlaşıb. Bir tərəfdən məktəbdə qarşılaşdığı ayrıseçkilik, diskriminasiya, digər tərəfdən də "sevgili"sinin hədə-qorxuları qıza mənfi təsir göstərib.

Bu arada 162 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi E.Hacıyevanın vəfatı ilə bağlı mövqe.az-a ilginc məlumat daxil olub. Saytlarda 162 saylı orta məktəbin direktoru Sevinc Abbasovanın intihar edən Elinayla bağlı şok səs yazısı yayılıb. S.Abbasova intihar edən yeniyetməni pozğunluqda ittiham edib. Direktor ona müraciət edənlərə Elinanın pozğun və uğursuz ailənin övladı olduğunu, anasının ikinci dəfə ailə qurduğunu, ikinci nikahdan kiçik uşaqları olduğuna görə Elina ilə maraqlanmadığını yazmağı xahiş edib. "Bilirsiniz, necə yazın? Yazın ki, pozğun ailənin uşağıdır, uğursuz ailənin uşağıdır. Valideyn ikinci dəfə ərə gedib, balaca uşaqları var, bununla maraqlanmır" -deyə direktor bildirib.

Ekspertlərin fikrincə, E.Hacıyevanın intihar etməsinə səbəb onun məktəbdə daim psixoloji təzyiq altında saxlanması və yeniyetmənin ayrıseçkiliyə, diskriminasiyaya məruz qalmasıdır. Əlbəttə, burada yeniyetmə ilə normal iş apara bilməyən məktəb psixoloqunun da üzərinə böyük məsuliyyət düşür. E.Hacıyeva kimi natamam ailələrdə böyüyən uşaqlara məktəblərdə ayrıca diqqət göstərilməli olduğunu deyən psixoloqlar hesab edirlər ki, vaxtında məktəb rəhbərliyi yeniyetməyə nəzarət etməli idi.

Qeyd edək ki, tanınmış təhsil eksperti Kamran Əsədov olayla bağlı mövqe.az-a çox ilginc bir açıqlama verib. K.Əsədov bildirib ki, məktəbin direktoru S.Abbasova Elinanın intiharı barədə dərhal təcili və təxirəsalınmaz tibbi yardıma müraciət etməyib: "Elina intihar edəndən sonra iki saat o yerdə qalıb. Bu barədə mənə məktəbdən etibarlı mənbə məlumat verib. İki saatdan sonra təcili və təxirəsalınmaz tibbi yardıma müraciət edilib. Hadisədən şok yaşayan məktəb rəhbərliyi həyəcandan necə davranacağını bilməyib. İki saatdan sonra təcili yardıma müraciət edildiyindən, qızcığazın həyatını qurtarmaq da, görünür, mümkün olmayıb.

Vaxtında həkimə müraciət edilsəydi, bəlkə də Elina yaşayacaqdı. Bu fakt mütləq prokurorluq tərəfindən araşdırılmalıdır". K.Əsədov deyib ki, indiyə qədər Bakı Şəhər Təhsil İdarəsinə 162 saylı məktəblə bağlı çox şikayət daxil olub. Amma o şikayətlərin hamısının üstünü Bakı Şəhər Təhsil İdarəsinin Daxili nəzarət sektorunun rəisi bağlayıb" - deyə K.Əsədov qeyd edib.

**Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə bildirdi ki, məktəb direktorunun 14 yaşlı yeniyetməni pozğunluqda ittiham etməsi və məktəbdə ona qarşı ayrıseçkilik mühiti yaratması Elinanı intihara vadar edən səbəblərdən biridir.** "Adını tərbiyəçi, ziyalı qoyan, böyük bir kollektivə rəhbərlik edən, məktəbdə pedaqoji işi təşkil edən bir məktəb direktorunun bu şəkildə açıqlama verməsi adamı mat qoyur, adamda təəccüb yaradır. Direktorun bu açıqlaması qınanmalıdır. Tutaq ki, qız natamam ailənin övladıdır, onun valideyni ikinci dəfə evlənib, ancaq görək məktəb bu qızın tərbiyəsində öz üzərinə düşən vəzifənin öhdəsindən gələ bilibmi? Bu qız özünü məktəbin pəncərəsindən atıb. Bu acı olay ailədə baş verməyib. Bu da o deməkdir ki, o qız ailədəki vəziyyətdən deyil, məktəbdə üzləşdiyi ayrıseçkilikdən bu yola əl atıb. Məktəbdə sinif yoldaşlarının ona münasibətindən özünə qəsd edib. Düşünürəm ki, həmin sinifdə dərs deyən müəllimlərin də bu qıza mənfi münasibəti olub. Bu münasibətdən təngə gələrək və psixoloji bir hal keçirərək intihar edib. 14 yaşlı qızın intihar etməsində onun oxuduğu məktəbin böyük həcmdə günahını görürəm. Yəni məktəbdə bu şagird, bu qız ətrafındakı sinif yoldaşları, müəllimləri, məktəb kollektivi, rəhbərliyi tərəfindən qayğı ilə əhatə olunmalı idi. Onun necə ailənin övladı olması burada müzakirə mövzusu deyil. Mühafizəçidən tutmuş, sinif yoldaşlarına qədər hər kəs ona xüsusi diqqət yetirməli idi, o, intihardan çəkindirilməliydi. Ona məktəbdə bu münasibət olsaydı, düşünürəm ki, 14 yaşlı yeniyetmə sonu faciə ilə bitən intihara əl atmazdı. Sözsüz ki, burada bizim təlim-tərbiyə işinin mərkəzi olan məktəbin və onun rəhbərliyinin günahının az olduğunu düşünmürəm. Sosial şəbəkələrdə yayılıb ki, sinif yoldaşları onu bu vəziyyətə saldı, müəllimlərin münasibəti onu bu yola vadar etdi, o da çıxış yolunu özünəqəsddə gördü. Şübhəsiz ki, məktəb rəhbərliyi də, digərləri də o qızın intiharında məsuliyyət daşıyırlar və bu prosesdən yaxalarını geri çəkə bilməzlər" - deyə M.Mürşüdlü qeyd etdi.



*Məlahət Mürşüdlü: "Şübhəsiz ki, məktəb rəhbərliyi də, digərləri də o qızın intiharında məsuliyyət daşıyırlar"*

*Kamran Əsədov: "Baş verən hadisə onu göstərir ki, 162 saylı orta məktəbdə şagirdlər arasında, şagird və müəllimlər arasında münasibətlər normal olmayıb"*

**Tanınmış təhsil eksperti Kamran Əsədov mövzu ilə bağlı "Bakı-Xəbər"ə bildirdi ki, mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir.** "Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran fəal şəxsiyyət yetişdirməkdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir.

Təlimdə keyfiyyətin əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən "müəllim-şagird" münasibətlərinin qurulmasında pedaqoji taktı - nəzakəti, onun davranışına olan etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır.

Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşmalıdır. O, şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməli, hərəkət etməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalıdır.

Müəllim və şagird arasında problemlər adətən sinifdən-sinfə keçdiyi zaman və onların yaş dövrləri ilə əlaqədar olaraq baş verir. Məsələn, 4-cü sinifdən 5-ci sinfə keçəndə yeni müəllimlərlə tanışlıq zamanı şagirdlərin psixologiyasında müəyyən dəyişikliklər olur. Birdən-birə onlar bir müəllimin əlindən çıxıb, bir neçə müəllimin qarşısında otururlar. Yeni müəllimlərlə tanışlıq onların özünəməxsus xarakterlərinin formalaşmasında mühüm rol oynasa da, ibtidai sinfi yenicə bitirmiş şagirdlər arasında çaşqınlıq yaradır. Bu sahədə onlara yeni təyin olunmuş sinif rəhbəri və məktəbin psixoloqu kömək etməlidir.

İlk vaxtlarda onların çoxu ağlayır, müəllimə öz şıltaqlıqlarını bildirir, bunun da həlli yolu ondan ibarətdir ki, uşaqlar məktəbə gəlməmişdən əvvəl mütləq məktəbəqədər müəssisələrə, yəni uşaq bağçalarına getməli, cəmiyyətin arasında özlərini necə aparmaq lazım olduqlarını öyrənməlidirlər.

Müəllim-şagird münasibətləri ilə yanaşı, məktəb daxilində şagirdlər arasında münasibətlər də çox vacibdir. Baş verən hadisə onu göstərir ki, 162 saylı orta məktəbdə şagirdlər arasında, şagird və müəllimlər arasında münasibətlər normal olmayıb. Çünki məktəb rəhbərliyi şagirdləri yaxından izləməlidir.

Kollektivin təqdiri və məzəmməti, sağlam tənqidi öz üzvlərində şəxsiyyətin inkişafına təsir edir, qüsurların aradan qaldırılmasına səbəb olur. Odur ki, müəllim və tərbiyəçilər şagird şəxsiyyətinin formalaşmasında kollektivin imkanlarından istifadə etməyə çalışmalıdırlar. Düzgün təşkil olunmuş kollektiv yüksək tərbiyələndirici qüvvəyə malik olur. Yaxşı təşkil edilmiş şagird kollektivində ictimai həmrəylik, ictimai rəyə hörmət, yoldaşlıq və dostluq, yüksək ideya inamı, humanizm və s. kimi yüksək əxlaqi hisslərin formalaşmasına geniş imkan yaranır. Şagird kollektivində yoldaşlıq və dostluq hissinin formalaşması üçün geniş imkanlar yaranır. Burada şagirdlərin bir-birinə qarşı həssaslığı, qayğıkeşliyi xüsusi yer tutur. Kollektiv möhkəm olduqda onun bütün normaları öz üzvlərinin normalarına çevrilir. Kollektiv üzvlərində yüksək ideya inamı yaranmış olur. Kollektiv özü şagirdlərdə kollektivçilik hissinin formalaşmasına da gətirib çıxarır ki, nəticədə həmin şagirdlərdə onları əhatə edən yoldaşlarına qarşı əsl humanist münasibətlərin yaranmasına səbəb olur. Təəsüflər olsun ki, qeyd olunan vəziyyət, sağlam təhsil mühiti 162 saylı orta məktəbdə qurulmayıb. Son dövrlərdə təyin olunan bəzi direktorlar məktəbə nəzarət edə, şagirdlər arasındakı münasibətləri tənzimləyə bilmirlər. İntihar edən şagirdin rəfiqəsinin dediyinə əsasən, onlar mütəmadi olaraq məktəb rəhbərliyinə müraciət etsələr də, onların şikayətləri təmin olunmayıb".

**K.Əsədov, həmçinin, müəllim və şagird arasında problemləri aradan qaldırmaq üçün bu təklifləri irəli sürür:**

*1. Müəllim yaxşı psixoloq olmalıdır. Pedaqoji məktəblərdə psixoloji treninqlər keçirilməlidir, hətta orta məktəbdə işləyən müəllimlər üçün də ara-sıra belə məşğələlər təşkil olunmalıdır.*

*2. Müəllim etik, estetik mədəniyyətə malik olmalıdır.*

*3. Müəllim hər bir şəxsə fərdi yanaşmağı bacarmalıdır.*

*4. Müəllim valideynlə sıx əlaqədə olmalıdır.*

***İradə SARIYEVA***

# Xəzəri çirkləndirən istirahət mərkəzləri bunlardır - Nazirliyin açıqlamasına mərkəzlərdən qəribə cavablar...

**Xəzərin problemləri içərisində dəniz sularının və dənizkənarı zonaların çirklənməsi, bununla əlaqədar ekoloji şəraitin korlanması son dövrün mühüm məsələlərindən biridir. Xəzər dənizinin əsas çirklənmə mənbələri onun sahillərində yerləşən şəhərlərin və sənaye obyektlərinin çirkab suları, dəniz nəqliyyatı və neft mədənlərinin müxtəlif çirkləndiriciləridir.**

***Telman Zeynalov:*** *"İş adamlarının çoxu sözügedən çimərliklərin təmizliyi haqqında düşünmür"*

***"Sunset" istirahət mərkəzi - İbrahim Novruzov:*** *"Yay sezonu olmadığı üçün, hazırda maddi imkanımız yoxdur ki, 10 min manata qurğu alaq"*

***"Məkan" istirahət mərkəzi - Hacı:*** *"...biz Xəzər dənizini çirkləndirmirik"*

***"Xəzər palace" istirahət mərkəzi - Mais Məmmədov:*** *"İstirahət mərkəzində müasir standartlara cavab verən qurğular quraşdırılıb"*



Sahil ərazilərinin çirklənmə dərəcəsini isə əsasən yay mövsümünün sonunda müşahidə etmək mümkündür ki, bunun da başlanğıcında insan amili durur.

Xəzər dənizini çirkləndirən qurumlara, istirahət mərkəzlərinə qarşı sərt tədbirlər həyata keçirilir. Bu günlərdə Xəzər dənizini çirkləndirən istirahət mərkəzlərinin adı açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsinin rəisi Ərəstun Həsənov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Xəzərsahili zolaqda fəaliyyət göstərən istirahət mərkəzlərində və müəssisələrdə keçirilən monitorinqlər zamanı sənaye və məişət tullantı sularının dənizi çirkləndirdiyi təsdiqlənib.

Ə.Həsənov bildirib ki, şimal bölgəsində "Qafqaz" konserv zavodu, "Sunset", "Məkan", "Təbib" istirahət mərkəzlərində, Abşeron yarımadasında "Azərboru" ASC-nin kollektorunda, Gəmi təmiri zavodunda, cənub bölgəsindəki "Beluqa", "Xəzər palace", "Meduza" istirahət-xidmət yerlərində hələ də günün tələblərinə cavab verməyən primitiv təmizləyici qurğulardan istifadə olunur. Bəzilərində isə tullantı sularının təmizlənməsi üçün müvafiq qurğular, ümumiyyətlə, mövcud deyil: "Yaxşı olardı ki, belə müəssisələr müasir tələblərə cavab verən təmizləyici qurğular quraşdıraraq, Xəzər dənizinin çirklənməsinin qarşısını alsın və həm də təmizlənmiş suyu texniki məqsədlər üçün təkrar istifadəyə yönəldərək, suya qənaət edilməsində nümunə göstərsinlər".

Xəzər dənizini çirklənməsinə səbəb olan istihat mərkəzlərində adıçəkilən qurğunun quraşdırılıb-quraşdırılmadığını, ümumiyyətlə, onların dənizin çirklənməsində rolu olub-olmadığını öyrənmək üçün özlərinə müraciət etdik.

Şimal bölgəsində fəaliyyət göstərən "Sunset" istirahət mərkəzinin inzibatçısı İbrahim Novruzov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, onlara Ekologiya və Təbii Sərvətlər Nazirliyindən Xəzər dənizinin çirklənməsi ilə bağlı məktub gəlib: "Həmin məktubda qeyd olunub ki, çalışdığım məkanda lazımi qurğu quraşdırılmayıb. Düzdür, mən adıçəkilən qurumun rəyi ilə razıyam. Hazırda istirahət mərkəzində günün tələbinə cavab verən qurğu quraşdırılmayıb. Bunun da səbəbi hazırda yay mövsümünün olmamasıdır. Məlumdur ki, istirahət mərkəzlərində əsas qazanc yay aylarında olur. Yay sezonu olmadığı üçün, hazırda maddi imkanımız yoxdur ki, 10 min manata qurğu alaq. Ancaq çimərlik mövsümü başlayan kimi biz həmin qurğudan alıb quraşdırıcağıq".

Şimal bölgəsində fəaliyyət göstərən "Məkan" istirahət mərkəzi ilə də əlaqə saxladıq. Özünü "Məkan" istirahət mərkəzinin rəhbəri kimi təqdim edən Hacı adlı şəxs "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, o, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlum iradı ilə razı deyil: "Bizim istirahət



mərkəzində müasir standartlara cavab verən qurğular quraşdırılıb. Bir müddət öncə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və hüquq-mühafizə orqanlarının nümayəndələri istirahət mərkəzində monitorinq keçirdi. "Məkan" istirahət mərkəzinin yaxınlığında kiçik kafe var. Monitorinq zamanı həmin kafenin əl-üz yuyanının köhnə və standartlara uyğun olmadığı müəyyən olunub. Maraqlıdır, əl-üz yuyanın köhnə olması Xəzər dənizini necə çirkləndirir? Ümumiyyətlə, həmin kafenin "Məkan" istirahət mərkəzinə aidiyyəti yoxdur. Sadəcə, məsafə baxımından yaxın olduğu üçün, həmin kafenin "Məkan"B istirahət mərkəzinə aid olduğu qeyd olunub. Biz onların ittihamı ilə razı deyilik".

Cənub bölgəsində fəaliyyət göstərən "Xəzər palace" istirahət mərkəzinin icraçı direktoru Mais Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, onun rəhbərlik etdiyi istirahət mərkəzində təmizləyici qurğular quraşdırılıb: "Lənkəran zonasında mövcud olan istirahət mərkəzləri arasında yeganə "Xəzər palace"da "şampus" sistemi quraşdırılıb. Bu elə bir sistemdir ki, vanna otağı, ayaqyolu və mətbəxdə istifadə olunan su anbara dolur. Şampus sistemi ilə hər həftə anbardakı su çəkilir. Beləliklə, bizim məkandan çirkab su Xəzər dənizinə axıdılmır. "Xəzər palace"da quraşdırılan sistemdən həm Lənkəran Ekologiya İdarəsi, həm də Ekologiya və Təbii Sərvətlər Nazirliyi xəbərdardır. İstənilən şəxs istədiyi zaman istirahət mərkəzinə gəlib müasir avadanlıqların quraşdırıldığını müşahidə edə bilər".

**Ekoloq Telman Zeynalovun sözlərinə görə, Bakı və Abşeronda fəaliyyət göstərən çimərliklərin əksəriyyətinin vəziyyəti bərbaddır, bunun əsas səbəbi, ilk növbədə, insanların özləridir:** "Xəzər hər birimizin sərvətidir və hər kəs onun təmiz saxlanması üçün məsuliyyət daşıyır. Çimərlik ərazilərinin əksəriyyəti sahibkarlar tərəfindən özəlləşdirilib və ya icarəyə götürülüb. İş adamlarının çoxu sözügedən çimərliklərin təmizliyi haqqında düşünmür.

Demək olar ki, bütün istirahət sahələri birbaşa dənizə çirkab suları axıdır. Nəticədə müxtəlif xəstəliklər yayılır. Qeyd edilən problemin aradan qaldırılması istiqamətində hazırda ölkədə bir sıra tədbirlər həyata keçirilir". T.Zeynalov hesab edir ki, bu istiqamətdə aparılan maarifləndirmə işləri və təşəbbüslər olduqca yaxşıdır, lakin cərimə metodları və nəzarət mexanizmləri daha sərt olmalı, zibil qutularının sayı artırılmalıdır: "Fikrimcə, ödənişli çimərliklərin sayı azaldılmalı, pulsuz çimərliklərin sayı çoxalmalıdır və müvafiq orqanların nəzarəti gücləndirilməlidir. Vətəndaşlar, rəsmi qurumlar da ekoloji vəziyyətə daha ciddi yanaşmalıdırlar. Bununla bağlı təbliğat işləri aparılmalıdır".

***Günel CƏLİLOVA***

# Məşhur kinolarımızdakı dialoq-monoloq mətnlərini təhriflə bərbad günə qoyan reklamçılar...

**Azərbaycanda bir sıra istehsalçı şirkətlər istehsal etdikləri məhsulların reklam çarxlarını hazırlayarkən klassik Azərbaycan filmlərindəki populyar dialoqlardan, replikalardan, artıq zərb-məsələ çevrilən ifadələrdən istifadə edirlər.**

## *"Gildiya filmdən istifadəyə o halda razılıq verir ki, filmin nüfuzuna heç bir xələl gəlməsin"*

Ağrılı hal ondan ibarətdir ki, bu parçalar, dialoqlar, replikalar təhrif edilərək şirkətlərin maraqlarına uyğun şəkildə təqdim edilir. İndiyə qədər bir neçə klassik filmin mətnlərindən bu şəkildə istifadə edilib, təhriflərə görə isə bu addımı atan şirkətlərə qarşı heç bir hüquqi, ictimai cəhətdən tədbirlər görülməyib. Mebel şirkətlərindən tutmuş, tum istehsal edən sexlərə, lombardlara, banklara qədər əksər qurumlar klassik Azərbaycan filmlərindən istifadə edirlər.

Şirkətlər özləri xərc çəkib məhsullarına uyğun reklamlar hazırlatmaq əvəzinə, bu cür ucuz işlərə əl atırlar. Halbuki, bütün şirkətlərin özlərinin reklam bölümündə xüsusi ssenaristlər, rejissorlar çalışmalıdır. Yəni şirkətlərin məhsullarının reklamı üçün çarxları həmin insanlar çəkməlidirlər.

Bu gün hazıra nazir olmaq istəyən yerli istehsalçı şirkətlər özlərini əziyyətə salmaq, daha çox pul xərcləmək istəmirlər və daha ucuz başa gələn işdən yapışırlar.

Bir sıra reklam çarxlarında klassik bədii filmlərimizdən parçaların yer alması müəllif hüquqlarının da pozulmasına gətirib çıxardığı şübhəsizdir. Qeyd edək ki, bəzi mütəxəssislərin qənaətinə görə, maarifləndirmə xarakterli, dövlət əhəmiyyətli məsələnin işıqlandırılmasına yönəlmiş sosial reklamlar istisna olunmaqla, bütün hallarda audiovizual əsərlərdən istifadə hüquq sahibinin razılığı ilə həyata keçirilməlidir. Bildirilənə görə, hüquq sahibi istəsə, ona qonorar da ödənməlidir, yəni bu onun hüququdur.

Qeyd edək ki, bir neçə il əvvəl hətta bəzi reklam şirkətləri filmlərdən qanunsuz istifadə etdiklərinə görə Müəllif Hüquqları Agentliyi tərəfindən məhkəməyə verilmişdi. Söhbət "Uzaq sahillərdə" filmindən qanunsuz istifadədən gedir. Həmin məhkəmə prosesi zamanı çıxarılan hökmdə bəyan edilirdi ki, hər hansı filmdən parçanın istifadəsinə görə hüquq sahibinin razılığı mütləqdir, yəni kinonun hüquq sahibi olan Professional Kinorejissorlar Gildiyası.





***Hüseyn Mehdiyev:** "Biz filmlərdən qanunsuz istifadə edənlərə irad bildirəndə deyirlər ki..."*

***Hacıəmi Atakişiyev:** "Reklam haqqında" Qanunda filmlərdən istifadə qaydaları ilə bağlı məsələ yoxdur"*

**Professional Kinorejissorlar Gildiyasının rəhbəri Hüseyn Mehdiyev "Bakı-Xəbər"ə bildirdi ki, bu mövzu olduqca aktualdır.** H.Mehdiyevin sözlərinə görə, Gildiya ölkədə bütün audiovizual əsər müəlliflərinin kollektiv idarəçiliyini həyata keçirən və bu sahədə hüquqları qoruyan təşkilat kimi klassik filmlərdən reklam çarxlarında istifadə edilməsi məsələsini daim nəzarətdə saxlayır. O qeyd etdi ki, Gildiya reklam çarxlarında da filmlərdən istifadənin qanunauyğun şəkildə həyata keçirilməsinə ciddi nəzarət edir: "Reklam çarxında filmlərdən parçalar istifadə edilməmişdən əvvəl mütləq həmin filmin hüquq sahibindən icazə alınmalıdır. Bu məsələ əsas götürülməlidir. Klassik Azərbaycan filmlərindən, yaxud hansısa bir filmdən parçaları reklam çarxlarında istifadə etmək istəyən şirkətlər bizə həmin çarxın ssenarisini təqdim edir və biz baxıb istifadəyə icazə verdikdən sonra Gildiya ilə müqavilə bağlayırlar. Filmlərdən parçaların həmin reklam çarxlarında istifadəsi məqbuldursa, icazə veririrk, müqavilə bağlanır, ödəniş edilir, sonra isə istifadə olunur. Yox, əgər məqbul deyilsə, bizi qane etmirsə, müəlliflərə zərər vurursa, biz o parçaların istifadəsinə icazə vermirik. Mexanizm təxminən belədir. Demək istəyirəm ki, ilk addımda reklam çarxını sifariş verən sahibkarlarla, şirkətlərlə əlaqə saxlayırıq.

Elə şirkətlər var ki, bizdən icazə alırlar, bəzi şirkətlər isə filmlərdən gizlin istifadə edirlər. Bir vaxtlar "Patron" tumlarının reklamında, əməlli-başlı, bizdən icazəsiz filmlərdən istifadə edilirdi. Biz uzun müddət cəhdlər etsək də, bu şirkətlə əlaqə yarada bilmirdik, indi onlar bu işi dayandırıblar. Bu şirkət xeyli müddət öz reklamlarında qanunsuz olaraq filmlərdən istifadə edib. Bu sahə Professional Kinorejissorlar Gildiyası tərəfindən nəzarətdədir".

Gildiya tərəfindən indiyə qədər neçə şirkətə icazə verilməsinə gəlincə, H.Mehdiyev qeyd etdi ki, dəqiq say yadında deyil, qanunun tələblərinə riayət edən şirkətlərə icazə verilib. O vurğuladı ki, bir neçə şirkətə qanun çərçivəsində icazə verilib. "Əgər bu filmlərdən reklam çarxlarında müqavilə ilə mənəvi qaydada istifadə edilirsə, niyə də istifadə etməsinlər. Sadəcə olaraq, bizim bu filmlərdən reklam çarxalarında istifadə edilməsinə görə aldığımız qonorar cüzidir. Biz hazırda buna görə qonoranı artırmaq niyyətindəyik. Bu da ona görədir ki, onlar filmlərə münasibətdə daha məsuliyyətli olsunlar. Onlar pulu artıq ödədikdə daha da məsuliyyətli olacaqlar.

Demək istəyirəm ki, Gildiya filmdən istifadəyə o halda razılıq verir ki, filmin nüfuzuna heç bir xələl gəlməsin, eyni zamanda, müəlliflərin ideyasına, yaradıcılığına ziyan yetirilməsin. İstehsalçı şirkətlər özünə müsbət imic qazanan, xalq arasında populyar olan, sevilən filmləri götürüb reklamlarında istifadə edirlər. Biz filmlərdən qanunsuz istifadə edənlərə irad bildirəndə deyirlər ki, pis bir şey etmirik, filmləri öz məhsullarımızla bağlı reklam edib tanıdırıq. Halbuki, o filmlərin reklama ehtiyacı yoxdur".

O, həmçinin, qeyd etdi ki, vaxtilə bir sıra şirkətlər filmlərin nüfuzuna xələl gətirən addımlar atıblar, lakin bu kimi halların qarşısı alınıb.

H.Mehdiyevin dediyinə görə, bütün mübahisəli məsələlərdə dövlətin müəllif hüququ sahəsində icraedici orqanı olan Müəllif Hüquqları Agentliyi həlledici rol oynayır: "Məhkəmə ilk növbədə agentliyə müraciət edir ki, məsələ ilə bağlı rəyini bildirsin. Agentlik qanunauyğun şəkildə öz rəyini verir ki, bu da məhkəmədə həlledici rol oynayır. Müəllif hüquqlarının qorunmasında, qanunun müddəalarına riayət olunmasında, ilk növbədə, Müəllif Hüquqları Agentliyi maraqlıdır".

H.Mehdiyev onu da bildirdi ki, Azərbaycanda "Reklam haqqında" Qanuna əlavə və dəyişikliklər edilməli və burada filmlərdən istifadə qaydaları müəyyən olunmalıdır.

**Azərbaycan Reklamçılar İttifaqının sədri, ekspert Hacıəmi Atakişiyev "Bakı-Xəbər"ə bildirdi ki, şirkətlər filmlərdən istifadə edərkən diqqətli olmalıdırlar.** H.Atakişiyev, həmçinin, onu da qeyd etdi ki, reklamlarda mətnlərindən istifadə edilən filmlər müvafiq qurumda qeydiyyatdan keçirilməlidir. Hansı filmdən ki, qanunsuz istifadə edilir, bu filmin hüquq sahibləri üzv olduqları qurumların köməkliyi ilə həmin təşkilatları cəzalandıra bilərlər. "Reklam haqqın"da Qanunda filmlərdən istifadə qaydaları ilə bağlı məsələ yoxdur" - deyə H.Atakişiyev qeyd etdi.

***İradə SARIYEVA***

---

# Hər 10 min nəfərə ölüm sayına görə dağ rayonlarımız arandan pis vəziyyətdədir - maraqlı paradoksun səbəbləri...

## *Əhməd Qəşəmoğlu: "Bu gün dağ rayonlarında yaşayanların həyat şəraiti və qidalanması ilə təbii imkanlar arasındakı harmoniya pozulub"*

### *"Ölüm hallarının artması..."*

**Uzun illərdir ictimai rəydə belə bir yanaşma formalaşıb ki, dağlıq ərazilərdə insanlar aran yerlərinə nisbətən daha sağlam və uzunömürlü olurlar. İstənilən dağlıq rayonun adı çəkiləndə o dəqiqə belə bir təəssürat yaranır. Bunu əsasən onunla əlaqələndirirlər ki, dağ rayonlarında hava təmiz olur, səs-küy olmur, təbii qidalara əlçatanlıq səviyyəsi daha genişdir, şəhərdən fərqli olaraq, gərgin stressli iş rejimi olmur və s. Bu səbəbdən 100-dən çox yaşı olanların dağlıq ərazilərdə yaşaması sözügedən amillərlə əlaqələndirilir.**



Ancaq bu arada sosial şəbəkələrdə Azərbaycanda ölüm statistikası ilə bağlı yayılan rəqəmlər fərqli mənzərə ortaya qoyur. Məlum olub ki, Azərbaycanda hər 10000 nəfər hesabı ilə ölüm əmsalı aran ərazilərində istisnasız olaraq dağ rayonlarından aşağıdır. Məsələn, 2017-ci ildə əhalinin hər 10000 nəferinə düşən ölüm əmsalının ən yüksək olduğu 5 rayonun adı qeyd olunub. Belə ki, bu, Gədəbəydə 83, Qazaxda 78, Tovuzda 75, Qaxda 74, Ağstafada isə 72 nəfər olub.

Əhalinin hər 10000 nəfəri hesabı ilə ölüm əmsalının ən aşağı olduğu 5 rayon isə aran bölgəsində yerləşir. Belə ki, bu rəqəm Saatlıda 46, Biləsuvarda 46, Cəlilabadda 46, İmişlidə 51, Qobustanda isə 53 nəfər olub.

Göründüyü kimi, ölüm əmsalının ən yuxarı olduğu dağlıq rayonla ən aşağı olduğu aran rayonu arasında az qala 2 dəfə fərq var. Özü də bu çox böyük bir fərqdir.

Maraqlıdır, niyə dağ rayonlarında aran rayonları ilə müqayisədə əhali arasında ölüm halları daha böyükdür? Bunun kökündə hansı amillər dayana bilər?

**Məsələyə aydınlıq gətirən sosioloq Əhməd Qəşəmoğlu bunun səbəbini bir sıra amillərlə əlaqələndirdi: "Əvvəla uzunömülü olmaq sağlamlıq mədəniyyəti ilə çox bağlıdır.** Yəni düzgün qidalanmaq, zərərli vərdişlərdən uzaq olmaq və s. Bu, təbii şəraitlə və təmiz qidalarla da bağlıdır. Yaponiyada sağlamlıq mədəniyyətinə daha çox önəm verilir. Çünki insan özüözünü qoruduğu qədər heç bir səhiyyə, heç bir tibbi sistem onu qoruya bilməz. İnsan özü bilir ki, nə ona ziyandır. Azərbaycanın dağ rayonlarının gözəl havası ilə bərabər, sərt iqlimi olur. Həmin sərt iqlimdə 50 il bundan əvvəlki həyat şəraiti ilə indikinin fərqi böyükdür. Əvvəl dağ rayonlarında bütün yayı işləyirdilər, qışda isə peçin qırağında otururdular. Necə deyərlər, insanlar o qədər də bərkə-boşa düşmürdülər. İndi isə cəmiyyətdə həyat şəraiti dəyişib və bu, dağ rayonlarında yaşayanların məişətinə də təsir göstərib.

Dağda yaşayanlar da yeni bir yaşam tərzinə məruz qalırlar ki, bu da onlar üçün o qədər də ənənəvi deyil. Ənənəvi olmadığı üçün də ortaya bir sıra problemlər çıxır. Məsələ ondadır ki, əvvəlki qidalanma rasionu dəyişib. Əvvəllər dağ rayonlarında insanların bir-birilə əlaqəsi, qidalanma, fiziki əmək harmoniya təşkil edirdi. Bu da insanların uzun yaşamasına kömək edirdi. İndi sözügedən faktorlar arasında ahəngin yaranmasında problemlər var.

Çünki qidalanma dəyişib, həyat tərzi dəyişib və s. Məsələn, görürsən ki, dağda yaşayır, amma gedir ferma istehsalı olan toyuq alır. Baxanda həmin toyuğu həyətində saxlasa, daha sağlam qida əldə etmiş olar. Bütün bunlar təbii imkanların qazandırdığı faktorları sıxışdırır.

Başqa bir tərəfdən, aran rayonlarında dağ rayonlarına baxanda səhiyyə xidməti daha əlçatandır. Bir şey olan kimi, həkim özünü çatdırır. Dağ rayonlarında bəzən insanlar həkimə müraciət etməyə, müayinədən keçməyə həvəsli olmurlar. Eyni zamanda, dağ rayonlarında təbii şərait aran rayonlarına baxanda həyat üçün daha təhlükəlidir.

**Söhbət iqlimin sərtliyindən gedir. Bütün bunlar kompleks şəkildə belə bir vəziyyətin ortaya çıxmasına təsir edir. Bir sözlə, bu gün dağ rayonlarında yaşayanların həyat şəraiti və qidalanması ilə təbii imkanlar arasındakı harmoniya pozulub. Sözügedən rayonlarda ölüm hallarının artması bununla bağlıdır".**

***Vidadi ORDAHALLI***

№ 62 (3960) ■ Qiymәti: 40 qәpik

**BAKI XƏBƏR**

9 APREL 2019-cu il

www.baki-xeber.com

# Planetdən sirli şəkildə yoxa çıxan insanlar...



**Hər il yer üzündə on minlərlə insan itir. Çoxu tapılsa da, bəzi hallarda ayaq izlərini də götürüb planetdən qeyb olurlar. Kimsə yeni həyat xəyalları ilə tozunu itirir, bir çoxları cinayətin qurbanına çevrilir.**

Naməlum talelərsə olub, var və olacaq. Adətən, mağazaya, işə gedib heç vaxt geri dönməyənlər...Bu durumda polis axtarışları da işə yaramır. "Milli.Az" xəbər-ətərsiz itib geri dönməyən bir ailənin tarixçəsini təqdim edir. 1959-cu ildə axtarış komandası çay kənarında bir avtomobilin izini tapır. Kolumbiya çayının yanından iki bacının cəsədi aşkarlanır. Lakin böyük bir ailənin səyahət etdiyi nə avtomobil, nə də ailənin digər üzvləri tapılmır. Uzun müddətli axtarışlardan sonra polislər açıqlama verir ki, sanki ailə və avtomobil bu dünyadan qaçıblar. Uzun müddət sonra axtarışlar dayandırılıb, Qəribə ailənin taleyi hələ də məlum deyil. 1989-cu ildə Serkl şəhərinin Montana ştatında Patrisia Mixan adlı qız avtomobil qəzasına düşür. Qəzanın səbəbkarı da Mixan özü idi. Sürücü Kerol Heys düşüb özünü maşın önünə atan qıza irad bildirir. Mixan isə onun üzünə baxıb meşəyə doğru gedir, və gözdən itir. Patrisiyanı uzun müddət axtaran polislər bir nəticəyə çata bilmirlər. Valideynləri isə gənc qızın son günlər depressiyadan əziyyət çəkdiyini bildirirlər. Bir ay sonra evlərinin yanındakı kafedə işləyən ofisiant Patrisianın orada səhər yeməyi yediyini söyləyir.

Bu gün əmin hadisədən 30 il ötüb, amma Patrisianın nə ölüsü, nə də dirisi tapılıb.

## Turizmi canlandırmaq üçün 4 min illik məzarı canlı yayımda açacaqlar

**"Ərəb baharı"ndan sonra zəifləmiş turizmini canlandırmaq istəyən Misir son dövrdə qədim dövrə aid məzarlarla bağlı çalışmalara xüsusi üstünlük verir.**

"Metbuat.az" bildirir ki, ən son bir qadına aid olan 3 min illik məzarı açan misirlilər bu dəfə də 4 min illik məzarın canlı yayımda açılmasına qərar verib. İlk fironlardan birinə aid olduğu düşünülən 4 min illik sarkofaqın açılışı 2 saat davam edəcək canlı yayımda bütün dünyadan izlənilə biləcək.

## Dəmirdən planet kəşf edildi

**Alimlər Dolça bürcündə tamamilə dəmir və nikeldən ibarət yeni planet kəşf ediblər. "Ölkə.az" xəbər verir ki, yeni planetdə bir il cəmi 120 dəqiqə davam edir.**



Alimlərin "Science" jurnalında dərc edilən yeni məqaləsinə əsasən, planet bu yaxınlarda ağ cırtdan ulduzla toqquşub: "Bu ağ cırtdanın cazibə qüvvəsi Yerin cazibə qüvvəsindən yüz min dəfə çoxdur. Bununla yanaşı, planetimizlə eyni ölçülərdədir. Onunla yaxınlaşan istənilən planet və asteroid parça-parça ola bilər".

## 188 nəfərlik təyyarə bir sərnişinə görə Litvadan İtaliyaya uçdu

**Litva vətəndaşı Skirmantas Strimaytis Vilnüsdən İtaliyaya uçan "Boeing 737-800" tipli təyyarənin yeganə sərnişini olub.**

"AZƏRTAC" bildirir ki, 188 nəfərlik sərnişin daşıma qabiliyyətinə malik təyyarədə litvalı sərnişin İtaliyanın Bergamo aeroportuna iki pilot və beş bort köməkçisi ilə birlikdə uçub. Turist şirkəti "Novatrus" məlumat yayıb ki, əslində, təyyarə İtaliyadan Litvaya turist qrupunu gətirmək üçün göndərilib. Sadəcə, turfirma yalnız bir tərəfə bilet sata bilib.



## Elan

Şəki rayonunun Çapağan kəndində yerləşən feldşer-mama məntəqəsinə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Məmmədov Qədir Şükür oğluna məxsus olan MV-015983 saylı veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mahmudov Rauf Xudaverdi oğlunun adına, Şamaxı rayonu, Nağaraxana (Kirovka) kəndində yerləşən bağ evinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Rəhimov Ramil Fəxrəddin oğlunun adına, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, ev 54, mənzil 38 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Əhmədov Mir-Sadiq Hüseyn oğlunun adına, Abşeron rayonu, Masazır kəndində yerləşən torpaq sahəsinə verilmiş çıxarış (seriya RX - № 0959726) itdiyi üçün etibarsız sayılır.

Hüseynova Zeynəb Səttar qızının adına, Abşeron rayonu, Mehdiabad qəsəbəsi, Şıxəli Qurbanov küçəsi, ev 27 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Əliyeva Leyla Gündüz qızına Qərbi Kaspi Universitetinin nəzdində olan Qərbi Kaspi Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əliyeva Gülnaz Nəsib qızının adına, Abşeron rayonu, Hökməli kəndində yerləşən ünvandakı torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə (JN-902 A, kod-30800036) itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Yalnız entuziazm və qətiyyət sayəsində uğur qazana bilərsiniz. Hətta, şərait imkan verməsə belə, siz məqsədinizə doğru gedir və hamının təəccübünə rəğmən, ona çatırsınız. Nüfuzlu bir şəxin dəstəyini qazana bilərsiniz.



**Buğa** - İşləriniz artır, gərginlik çoxalır, amma bunların heç biri sizi tamamilə qorxutmur. Cəld hərəkət etmək və ani anda vacib qərarlar qəbul etmək kimi xüsusiyyətləriniz bədxahlarınız qarşısınıda sizə böyük üstünlük qazandırır.



**Əkizlər** - Bu gün öz işlərinizi bir kənara qoyub, başqalarının maraqlarını müdafiə edəcək, ətrafınızdakıları sevindirəcəksiniz. Kimsə sizin xeyirxahlığınızdan sui-istifadə etməyə çalışmayacaq, odur ki, insanlara yardım etmək həvəsinizi boğmayın.



**Xərçəng** - Ehtiyacınız olan dəstəyi vaxtında alacaq və onun sayəsində bir çox problemlərinizin öhdəsindən gələcəksiniz. Ağlınızı işlədərək cari məsələlərin öhdəsindən tez gəlməyin yolunu tapa bilərsiniz.



**Şir** - Yaradıcı iş, qeyri-standart yanaşma tələb edən məsələlərin həlli üçün əla gündür. Orijinal ideyaları gerçəkləşdirmək xoşunuza gəlir, cari işlər isə sizi yorur, darıxdırır. İşgüzar danışıqlar yaxşı keçir, yeni tanışlarınızda dərin təəssürat oyadırsınız.



**Qız** - Düzgün yanaşma sayəsində bir çox problemləri həll etmək mümkün olacaq. Başqalarının əhəmiyyət vermədikləri faktları, bütün işin gedişatına təsir edə biləcək xırda detalları vaxtında görür və düzgün qiymətləndirirsiniz.



**Tərəzi** - Kölgədə qalmağa can atmayın: bu gün nə qədər çox diqqət cəlb etsəniz, bir o qədər yaxşıdır (özü də tək sizin üçün deyil). Nüfuzlu şəxslərlə danışıqlar aparmaq, investor və ya hami axtarmaq olar.



**Əqrəb** - Cari işlərə diqqət yetirmək çətindir: ürəyiniz böyük layihələr və möhtəşəm qələbələr istəyir. İddialı ideyalarınızı reallaşdıra bilərsiniz. Dəfələrlə hər şeyə qadir olduğunuzu sübut etdiyiniz adamlar bu işdə sizə yardımçı ola bilərlər.



**Oxatan** - Kütlə qarşısında çıxışlar, işgüzar danışıqların aparılması üçün münasib gündür. Əgər iş axtarırsınızsa, bu gün potensial sahibkarlarla görüş üçün çox əladır: onlarda lazımi təəssürat oyada bilərsiniz.



**Oğlaq** - Məqsəd və prioritetlərinizi dəqiqləşdirmədən heç bir addım atmayın. Yeni, sizin üçün tanış olmayan sahəyə can atırsınız, ancaq öncə başladığınız işləri bitirsəniz, daha yaxşı olar.



**Dolça** - Peşəkar məsələlər xeyli güc tələb edir. Ancaq nə vaxtsa yardım etdiyiniz insanlar köməyinizə gələcəklər. İşləriniz çox olsa da, qeyri-formal ünsiyyət üçün də vaxtınız qalacaq.



**Balıqlar** - Mürəkkəb məsələlər həllini gözləyir, siz də tərəddüdsüz bunları bir-bir aradan qaldırmağa girişirsiniz. Özünüzə inamınızın əsası var - doğrudan da, indi hər şeyə qadirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Az və ya orta ölçülü spirtli içki iflic risqini artırırmış...

**Az və ya orta ölçülü spirtli içki iflic riskini artırır. "Publika.az" xəbər verir ki, Çində 10 il ərzində 500 mindən çox sakinin etdikləri idman və qəbul etdikləri içkinin miqdarı ilə sağlamlıq göstəriciləri araşdırılıb.**

Çin və İngilis alimlərinin apardıqları araşdırma zamanı gündə 1-2 qədəh spirtli içkinin iflic riskini 10-15 faiz, 4 qədəhdən çox qəbul etməyin isə 35 faiz artırdığı bildirilib. Oxford Universitetinin professoru Riçard Petonun sözlərinə görə, artıq şərab və piyvənin qorucuyu təsirləri barədə iddiaları elmi cəhətdən əhəmiyyətsizdir. Kembric Universitetindən doktor Stefan Burges bildirib ki, çox və uzun müddətli spirtli içki qəbulunun insan sağlamlığına zərərli olduğu bəlli idi. Lakin araşdırmaya görə, az içki qəbul etmək ürək üçün faydalı deyil, əksinə, iflic riskini artırır. Mütəxəssislər spirtli içki qəbuluna məhdudiyyətin qoyulmasını gündəmə gətirib. Keçən il yayımlanan Xəstəliklərin Qlobal Yükü araşdırmasında spirtli içkinin sağlamlığa zərər vermədən qəbul etməyin etibarlı bir ölçüsünün olmadığı bildirilmişdi. 195 ölkədə spirtli içki qəbulu və xəstəliklər arasında əlaqə ilə bağlı aparılan araşdırmada az miqdarda və mütəmadi spirtli içki qəbul edənlərin orqan çatışmazlığı, xərçəng kimi xəstəliklərə yoluxmasının heç qəbul etməyənlərlə müqayisədə artdığı müəyyən edilib.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.**

*Sifariş: №2514* *Tiraj: 3050*

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**